| **FTN 3.** Problem haqqında mövqe ifadə edərkən problemin kontekstini müəyyən edir və təhlil edir; mövcud və ya mümkün fərziyyələri və nöqteyi-nəzərləri şərh edir. |
| **FTN 4.** Problemin mürəkkəbliyini və ya problemə müxtəlif yanaşmaları nəzərə alan mülahizələr, tezislər formalaşdırır. |
| **FTN 5.** Arqumentativ diskursun təhlili və dəyərləndirilməsi üçün vacib olan əsas anlayışları izah və tətbiq edir. |
| **FTN 6.** Mürəkkəb məsələlərin bir neçə mümkün həlli yolunu müəyyən edir, alternativ mülahizələr irəli sürmə bacarığına yiyələnir. |
| **FTN 7.** Əsaslandırılmış nəticələr çıxarmaq məqsədi ilə məlumatları və faktları sintez etmə bacarığına yiyələnir. |
| **FTN 8.** Arqumentlərin məntiqiliyini və etibarlılığını, eləcə də müvafiq məlumatın və faktların verilən arqumentlə bağlılıq və arqumentə aidiyyət dərəcəsini dəyərləndirir. |
| **FTN 9.** Ümumi məntiqi və ritorik səfsətələri müəyyən edir. |
| **FTN 10.** Anlayış, hökm və əqli nəticə arasındakı fərqi izah edir. |
| **FTN 11.** Tezis, mülahizə , mühakimə və arqumentləri müəyyən edir. |
| **FTN 12.** Eyniyyət, ziddiyyətsizlik , üçüncünü istisna və kafi əsas qanunu kimi formal məntiq qanunlarını bilir, bunları əqli nəticə və sübut prosesində tətbiq edə bilir. |
| **FTN 13.** Taftalogiya, ziddiyyət, səfsətə və paradoksları müəyyən edə bilir |
| **FTN 14.** Bu bacarıqları akademik, analitik və yaradıcı şifahi və yazı vərdişlərinin inkişafında istifadə edir. |
| **“Öyrənilən əsas dil” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Dilin orfoepik və orfoqrafik sistemləri arasındakı əlaqəni müəyyən edə bilir. |
| **FTN 2.** Dilin qrammatik quruluşunu mənimsəyir, qrammatik səhvləri müəyyən edir və qrammatik cəhətdən qüsursuz mətn parçaları formalaşdıra bilir. Dilin struktur vahidlərinin kommunikativ funksiyalarına yiyələnir və onlardan düzgün istifadə edir. |
| **FTN 3.** Ünsiyyətin qurulması prosesində dilin zəngin resurslarından maksimum yararlanacaq səviyyədə dilin leksik korpusuna yiyələnir; şifahi və yazılı nitqdə leksik-semantik kateqoriyalardan, ümumişlək olma-yan lüğət elementlərindən frazeoloji vahidlərdən, terminlərdən, spesifik ifadələrdən düzgün istifadə etməyi bacarır; sinonimlərin konnotativ xüsusiyyətlərini, çoxmənalı sözlərin işlədilmə məqamlarını ayırd edə bilir. |
| **FTN 4.** Nitqi dinləyici üçün anlaşıqlı, vacib məqamları nəzərə çarpdıracaq qədər ekspressiv və məntiqli şəkildə qurur. |
| **FTN 5.** Effektiv eşidib-anlama vərdişlərini inkişaf etdirir. |
| **FTN 6.** Dinlədiyi mətnlərin linqvistik təhlilini apara bilir; əsas fikirləri, detalları şərh edir; spesifik ifadələrin, idiomların, terminlərin mənasını anlayır; intonasiya və digər prosodik vahidləri fərqləndirir və bunların əsasında danışanın mövzuya emosional-ekspressiv münasibətini izah edir. |
| **FTN 7.** Müxtəlif konkret və mücərrəd mövzulu yazılı mətnləri anlayır, mətndə yer alan əsas fikirləri şərh edir, mətnin əsas məqamlarını parafraz edir və ümumiləşdirir. |
| **FTN 8.** Frazeoloji vahidlərin semantik-üslubi cəhətlərini və struktur xüsusiyyətlərini ayırd edə bilir. |
| **FTN 9.** Öyrənilən dilin şöbələrini xarakterizə edə bilir; əsas ünsiyyət vahidlərinin normativ, kommuni-kativ və etik aspektlərdə tətbiqini bacarır; sərbəst fikir söyləyir, tutarlı və zəngin nitq nümayiş etdirir. |

| |
|---|
| **FTN 10.** Mətnin təşkilində iştirak edən struktur elementlərinin və vasitələrin xüsusiyyətlərini və tətbiqini mənimsəyir. |
| **“Ölkə ədəbiyyatı tarixi” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Ölkə ədəbiyyatı tarixininin ümumi səciyyəsini vermir və ayrı-ayrı mərhələlərinin xüsusiyyətlərini müəyyənləşdirir. |
| **FTN 2.** Müxtəlif dövrlərdə ədəbiyyatda baş vermiş mühüm hadisələri dərk edir və hər dövrə aid ədəbi istiqamət və məktəblərin müvafiq ölkə üzrə nümayəndələrinin fərqli janrlarda yazılmış ədəbi nümunələrini mənimsəyir; ədəbi nümunələri dövrlər üzrə qarşılaşdıraraq təhlil edir. |
| **FTN 3.** Ölkə ədəbiyyatının aparıcı ictimai-siyasi və ədəbi simalarının həyat və yaradıcılığı barəsində dolğun biliklərə yiyələnir, əsərləri ilə tanış olur, onların fəlsəfi və estetik görüşlərini təhlil edir. |
| **FTN 4.** Bədii əsərlərin üslubi xüsusiyyətləri, əsas ideya və mövzuları haqqında nəzəri-təcrübi məlumat əldə edir. |
| **FTN 5.** Öyrənilən xalqın ədəbiyyatının əsas mənbələrini araşdırmağı bacarır. |
| **FTN 6.** Ölkə ədəbiyyatının ümumdünya ədəbi prosesinə təsirini şərh edir. |
| **FTN 7.** İxtisas ölkəsi ədəbiyyatı nümunələrində Azərbaycan, Şərq, türk mövzuları və motivləri barədə biliklər qazanır. |
| **“Dünya ədəbiyyatı” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Qədim Şərq və Qərb xalqlarının mifləri ilə tanış olur, onları dövrün tarixi-mədəni konteksti müstəvisində öyrənir. |
| **FTN 2.** Antik ədəbiyyatın ümümbəşəri və tarixi əhəmiyyəti, nümayəndələri barəsində müfəssəl məlumatlara yiyələnir, antik lirika və dramaturgiya haqqında ətrafları biliklərə sahib olur. |
| **FTN 3.** Orta əsrlər qəhrəmanlıq eposları, cəngavər-kurtuaz və şəhər ədəbiyyatının poeziya və nəsr nümunələri haqda biliklərə yiyələnir, trubadur və truver poeziyasını mənimsəyir, cəngavər romanı haqqında ətrafları biliklərə sahib olur. |
| **FTN 4.** Orta əsrlər Şərq və Qərb ədəbiyyatının aparıcı ictimai-siyasi nümayəndələrinin, ədib və filosoflarının həyat və yaradıcılıqları haqqında məlumatı mənimsəyir. |
| **FTN 5.** İntibah, Klassisizm, Maarifçilik, Romantizm və Realizm ədəbiyyatının tanınmış yazıçı, şair və dramaturqları barəsində müfəssəl məlumata, aparıcı ədəbi cərəyanların təkamülü haqqında ətraflı biliklərə sahib olur; bu cərəyanları qarşılıqlı şəkildə təhlil edə bilir. |
| **FTN 6.** Modernist ədəbiyyatın fəlsəfi-estetik və nəzəri konsepsiyalarını ədəbi nümunələr əsasında mənimsəyir. |
| **FTN 7.** Posmodernist ədəbiyyatın ədəbi-estetik əsaslarını və müasir müəlliflərin bədii mətnlərində inikas xüsusiyyətlərini araşdırmağı bacarır. |
| **FTN 8.** Müasir ədəbi prosesin əsas təmayülləri ilə (magik realizm, antiutopiya, itirilmiş nəsil, qara yumor, feminizm, elmi fantastika, mutikulturalizmə s.) tanış olur və bu təmayülləri ədəbi nümunələr əsasında səciyyələndirir. |
| **Qədim dil” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Qədim dilin səs sistemini mənimsəyir. |
| **FTN 2.** Qədim dilin morfoloji strukturunu mənimsəyir. |
| **FTN 3.** Qədrim dilin əsas sintaktik vahidlərini mənimsəyir. |
| **FTN 4.** Qədim dildə seçilmiş mətnləri oxuyub anlama səviyyəsində leksik korpusunu mənimsəyir. |
| **FTN 5.** Qədim dildə əsas frazeoloji vahidlərin mənasını anlayır. |
| **FTN 6.** Qədim dilin inkişaf etdiyi mühitin sosial, siyasi və mədəni özəllikləri haq. məlumatlı olur. |
| **FTN 7.** Qədim dilin istifadə edildiyi ədəbi abidələr və qədim dildə əsərlər yaratmış yazıçılar haqqında bilik əldə edir və bu əsərlərdən parçaları müəllimin köməyi ilə/lüğətdən istifadə edərək oxuyub tərcümə edə (və ya şərh edə) bilir. |
| **FTN 8.** Qədim dilin yazıldığı ədəbi əsərlərdə üslub xüsusiyyətlərini təhlil edir, oxu materialına istinad edərək qədim dilin funksional üslubları haqqında fikir yürüdür. |
| **“Ölkəşünaslıq” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Dili öyrənilən xalqın tarixi və mədəniyyəti haqqında təməl bilklər əldə edir. |
| **FTN 2.** Dili öyrənilən xalqın tarixi və mədəniyyəti haqqında əldə etdikləri biliklər əsasında öyrəndiyi dildə sosio-lnqvistik, sosio-kulturoloji və mədəniyyətlərarası ünsiyyət səviyyəsində müvafiq vərdişlər əldə edir. |
| **FTN 3.** Dili öyrənilən xalqın mədəniyyətini digər mədəniyyətlərlə müqayisəli şəkildə təhlil edə bilir. |

| |
|---|
| **FTN 4.** DilI öyrənilən xalqın tarixi, mədəniyyəti və dili öyrənilən xalqın yaşadığı ölkədə/ölkərədə gedən sosial proseslərlə bağlı debatlarda iştirak edə bilir. |
| **FTN 5.** Əldə etdikləri bilik və bacarıqlarla təkcə leksik fon, milli mədəniyyət və milli reallıqları deyil, həm də ünsiyyətdə olduqları digər tələbələrdə öyrənilən dilin ölkəsinə hörmət və məhəbbəti aşılamağı bacarır. |
| **FTN 6.** Dili öyrənilən xalqın mədəniyyətindən qəbul edilmiş ünsiyyət, adət və ənənələrin Azərbaycan mədəniyyəti ilə sistemli şəkildə qarşılıqlı əlaqəsini izah edə bilir. |
| **"Psixologiya" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Psixologiyanın predmeti və metodları, psixologiyanın elmlər sistemində yeri və onun əsas sahələri, psixoloji fikrin əsas inkişaf istiqamətləri haqqında biliklər əldə edir. |
| **FTN 2.** İnsan psixikasının quruluşu, davranışın tənzimində şüurun və şüursuzluğun rolu, davranış və fəaliyyətin motivasiyası və psixi tənzimi haqqında təsəvvürə malik olur. |
| **FTN 3.** Psixologiya elminin əsas kateqoriya və anlayışları, psixi olanın idraki, emosional-iradi, motivasyon sahələri, şəxsiyyət, şəxsiyyətin inkişafı və formalaşması xüsusiyyətləri, təfəkkür, ünsiyyət və fəaliyyət, temperament, xarakter və qabiliyyətlər, təhsil və özünüinkişaf problemi haqında biliklərə malik olur. |
| **FTN 4.** Peşəkar və problemli təlim situasiyalarının təhlilini aparmağı, professional ünsiyyəti və qarşılıqlı təsiri, fərdi və birgə qərar qəbulunu, refleksiyanı təşkil etməyi bacarır. |
| **FTN 5.** İnsanların şəxsi və fərdi-psixoloji xüsusiyyətlərinin, eləcə də onların idraki və professional fəaliyyət üslubunun diaqnostikasını aparmağı bacarır. |
| **FTN 6.** Əldə edilmiş bilikləri istər təhsildə pedaqoji sahədə, sənaye və ticarət sahəsində, istərsə də hüquqazidd davranışla mübarizə və s. sahələrdə müxtəlif psixoloji xarakterli praktik problemlərin həllində və qərarların qəbul edilməsində tətbiq edir. |
| **"Ümumi dilçilik" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Daha öncə müvafiq zəruri fənn çərçivəsində əldə edilmiş biliklərə əsaslanaraq dilçilik problemlərinin anlaşılmasında, müəyyən edilməsində və təhlilində yeni səviyyə əldə edir. |
| **FTN 2.** Dilçilikdə ayrı-ayrı şöbələr üzrə mövcud əsas elmi cərəyanların konseptual çərçivəsini və bu cərəyanlara dayanan elmi metodologiyanı anlayır və onları real dil faktlarına tətbiq edərək təhlil edir. |
| **FTN 3.** Dilçilik sahəsində araşdırma aparmaq məqsədi ilə metodoloji bazanı müəyyən edə bilir. |
| **FTN 4.** Dilçiliklə bağlı problemləri humanitar və sosial elmlər sahəsindəki problemlər və nəzəri müddəalarla əlaqələndirərək interdisiplinar çərçivədə qavrayır və təhlil edir. |
| **FTN 5.** Dilçilik elminin müasir problemləri, prioretləri və gələcək perspektivləri haqqında müstəqil mülahizə irəli sürür. |
| **FTN 6.** Dilə, dil faktlarına, dildə gedən proseslərə sistemli elmi yanaşma tətbiq edə bilir. |
| **"Ədəbiyyat nəzəriyyəsi" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Bədii ədəbiyyatın ümumi nəzəri prinsiplərini öyrənir. |
| **FTN 2.** Ədəbiyyatın təbiəti və ədəbiyyatın təyinatı haqqında biliklər əldə edir. |
| **FTN 3.** Ədəbiyyat-cəmiyyət, ədəbiyyat-fəlsəfə, ədəbiyyat-psixologiya, ədəbiyyat-bioqrafiya arasındakı münasibətləri mənimsəyir. |
| **FTN 4.** Əsərin bədii bütövlüyü haqqında nəzəri biliklərə yiyələnir, süjet və kompozisiya ilə bağlı bilikləri genişləndirir. |
| **FTN 5.** Ədəbi dilin leksik-semantik xüsusiyyətlərini mənimsəyir, obrazlı dilin ifadə vasitələri haqqında biliklərə yiyələnir, şeir vəznlərinin milli dilin xüsusiyyətləri ilə əlaqəsini aydınlaşdırır. |
| **FTN 6.** Bədii üslub və metodların tipologiyasını müəyyən edir, metodoloji prinsipləri və üslubi istiqamətləri müəyyənləşdirir. |
| **FTN 7.** Ədəbiyyatşünaslığın mifoloji, psixoloji, bioqrafik, tarixi-müqayisəli məktəbləri haqqında biliklər əldə edir. |
| **"Üslubiyyat və ritorika" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Üslubiyyata aid spesifik anlayışları və onların arasındakı fərqləri müəyyənləşdirir. |
| **FTN 2.** Müxtəlif mətnlərdə və nitqdə istifadə edilən üslubi vasitələri və onların kontekstdəki funksiyasını müəyyənləşdirir, üslubi analizin prinsiplərini təsvir və müzakirə edir. |
| **FTN 3.** Müvafiq funksional üslublarda mətnlər tərtib edə bilmək üçün uyğun stilistik vahidləri seçib tətbiq etməyi bacarır. |
| **FTN 4.** Ritorik vasitələrdən istifadə etməklə nitqin məntiqiliyini və inandırıcılığını təmin edir. |
| **FTN 5.** Gündəlik və peşəkar diskursda istifadə edilən ritorik vasitələri və xüsusiyyətləri müəyyən edə bilir. |

| |
|---|
| **FTN 6.** Öyrənilən dilin ifadəlilik imkanlarını, üslubi kateqoriyaların nitq fəaliyyətində tətbiq metodlarını mənimsəyir, ritorik tələblərə riayət edir və mədəni nitq qabiliyyəti nümayiş etdirir. |
| **“Müasir informasiya - kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Yeni informasiya texnologiyaları və onların rolu haqqında bilikləri əldə edir. |
| **FTN 2.** Müasir informasiya- kommunikasiya texnologiyalarının növləri, təsnifatı haqqında biliklərə yiyələnir. |
| **FTN 3.** İnformasiya cəmiyyətinin konsepsiyası və xüsusiyyətləri, cəmiyyətin informasiyalaşdırılması prosesinin əsas mərhələləri haqqında biliklər qazanır. |
| **FTN 4.** Müvafiq ixtisas sahəsində müasir texnologiyalardan istifadə etmək praktikasına yiyələnir. |
| **FTN 5.** Müvafiq ixtisas sahəsində informasiya texnologiyalarının rolunu və effektivlik meyarlarını qiymətləndirir. |
| **FTN 6.** Müasir Əməiyyat Sistemlərinin iş prinsipini mənimsəyir. |
| **FTN 7.** Proqramlaşdırma bacarığına yiyələnir. |
| **FTN 8.** Veb sistemləri və texnologiyası sahəsində biliklərə yiyələnir və praktik iş təcrübəsi əldə edir. |
| **FTN 9.** Süni intellekt, ekspert sistemləri və s. haqqında biliklər əldə edir. |
| **FTN 10.** İnformasiya təhlükəsizliyi, ona nail olma yolları ilə bağlı bacarıqları formalaşır. |
| **FTN 11.** Ms Office 365 paket proqramlarını mənimsəyir və müvafiq ixtisas sahəsi üzrə tətbiq edir. |
| **FTN 12.** Verіənlər bazası haqqında biliyə yiyələnir və müvafiq ixtisas sahəsi üzrə tətbiq edir. |
| **“Mülki müdafiə” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Fövqəladə hadisələrin təsnifatı, onların tam xarakteristikası, Mülki müdafiənin yaranma tarixi, onun FH-da rolu və vəzifələrini öyrənir. Mülki müdafiə ilə bağlı normativ-hüquqi sənədləri bilir. |
| **FTN 2.** Müasir dövürdə sülh və müharibə dövürlərində Mülki müdafiənin rolunu və vəzifələrini bilir. Texnogen FH-də hadisələrin qarşısının alınması yolları, bakterioloji, kimyəvi və radiasiya şəraitində əhalinin davranış qaydalarını, mahiyyətini bilir. Karantin, observasiya şəraitində, sanitar təmizliyi, ərazinin dezin-feksiyası, kimyəvi zəhərlənmə ocaqlan an dadeqazasiya, radiasiya şəraitində isə dezaktivasiya üsullarını bilir. |
| **FTN 3.** Fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün Dövlət sisteminin rolu və vəzifələrini bilir. Hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin yaradılmasını öyrənir. |
| **FTN 4.** Fövqəladəhallar zamanı əhalinin mühafizəsinin təşkilini həyata keçirir. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bilir. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilir. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini bacarır. Fövqəladə hallar zamanı əhalinin səmərəli mühafizəsinin təşkilini bacarır. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bacarır. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilir. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini həyata keçirir. |
| **FTN 5.** Mülki müdafiə kəşfiyyatının təşkili və aparılması qaydalarını bilir. Radiasiya və kimyəvi, kəşfiyyat cihazlarını işlətməyi bacarır. Mülki müdafə üzrə idaretmə, mülki müdafiə qərargahları və onların əsas vəzifələrini bilir. |
| **FTN 6.** FH-in nəticələrinin aradan qaldırılması yollarını bilir. Qəza- xilasetmə və digəri təxirəsalınmaz işlərin dağıntı ocaqlarında təşkil edir və aparılmasını həyata keçirir. Əhalinin mülki müdafiə sahəsində hazırlanmasının prinsiplərini öyrənir. Fövqəladə hadisələr zamanı dağıntı ərazisində ilk tibbi yardım aparmağı bacarır. |
| **“Dil və cəmiyyət” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** “Dil və cəmiyyət” fənnində toplumdaxili ünsiyyətin formatını müəyyənləşdirən, kommunikasiya prosesini rəvanlaşdıran və ya əksinə manelərə yol açan, kommunikativ geştaltlar qəlibində formalaşan nitq davranışı stereotipləri, patternləri və s. bilir. |
| **FTN 2.** “Dil və cəmiyyət” fənni çərçivəsində həmçinin ünsiyyət prosesinin verbal, qeyri-verbal və transverbal reallaşma şəklinin nisbətini öyrənir, eləcə də fərqli diskurslarda, fərqli mədəniyyətlərin təmasında bu nisbətin təzahür xüsusiyyətlərini izləməyi bacarır. |
| **FTN 3.** Eləcə də kross-kultural ünsiyyətdə semantik adekvatlığa mane olan lakuna hallarını, sosial qradasiya fərqliliyi zəminində ortaya çıxan sosial zümrə nitq patternlərini də öyrənir. |
| **FTN 4.** Habelə individual psixtip özəlliklərin ünsiyyətin müvəffəqiyyətliliyinə və ya kommunikasiya uğursuzluğuna yol açması məqamını təhlil edir. |
| **FTN 5.** O cümlədən gender fərqliliklərinin ünsiyyət modellərinə təsirini izah edir. |
| **“Dilçiliyin tarixi” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Bütövlükdə dilçiliyin tarixi, müasir vəziyyəti və perspektivləri və onun konkret peşə sahəsi üzrə problemlərini müəyyənləşdirir, dərki və təhlilində yeni səviyyə əldə edir. |

| |
|---|
| **FTN 2.** Dilçiliyin tarixi üzrə fundamental bilikləri mənimsəyir, terminoloji aparata yiyələnir, linqvistik təfəkkürə və əsas tədqiqat metod və üsullarını mənimsəyir və qazanılmış bilikləri real dil faktları və materiallarına tətbiq edərək təhlil edir. |
| **FTN 3.** Dilçilik tarixində aparıcı cərəyanlar, məktəblər və ayrı-ayrı alimlərin əsas müddəalarını təhlil edir. |
| **FTN 4.** Linqvistik problemlərin həllinə elmi yanaşma və nəzəriyyələr çərçivədə dərk və təhlil edir. |
| **FTN 5.** Dilçilik elminin yeni paradiqmləri, onların inkişaf dinamikası və gələcək perspektivləri haqqında müstəqil fikir və mülahizələr irəli sürür |
| **FTN 6.** Müasir elmi-nəzəri mənbələrdə aparıcı ideya və fikirlərə istinad edərək dilə, dilin mahiyyətinə, sistem və struktur xüsusiyyətlərinə, dil faktlarına, dildə gedən dildaxili proseslərə sistemli yanaşma tətbiq edə bilir, mətnin filoloji və təhlilini və şərhini verə bilir. |
| **“Linqvistik tipologiya” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Linqvistik tipologiya fənninin tədrisi çərçivəsində həm struktur, həm də sosial tipologiya formatında linqvistik təsnifatlandırma işıqlandırmağı bacarır. |
| **FTN 2.** Bu çərçivədə ilk olaraq, linvistik universalilər, frekventalilər və unikalilər fərqləndirir. Daha sonra frekventalilərin növü kimi, tipoloji bölgüləri (morfoloji təsnifat, stadial təsnifat, kontensiv təsnifat) bilir. |
| **FTN 3.** Morfoloji bölgünün (kök, aqqlütinativ, flektiv və inkorporlaşan dil tipi fərqləndirməsi) daha əhəmiyyətli və qlobal status qazanmasından dolayı, onun tarixi, qrammatik determinanta və ressesivlər (tipoloji anomaliyalar, yəni, aqqlütinativ dillərdə flektiv elementlər və ya əksinə flektiv dillərdə aqqlütinasiya mexanizmləri və s.) məqamları da geniş şəkildə işıqlandırmağı bacarır. |
| **FTN 4.** Eləcə də bu fənnin tədrisi çərçivəsində sosial tipologiya aspektində ədəbi dil – dialekt – norma məsələləri, monolinqvizm – bilinqvizm – polilinqvizm problemini təhlil etməyi bacarır. |
| **FTN 5.** O cümlədən də, dövlət dili, dillərin kommunikativ ranqlarını da işıqlandırmağı bacarır; |
| **“Semantik universalilər və unikalilər” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Fənn çərçivəsində əldə edilmiş nəzəri biliklərə əsaslanaraq semantik universallığı əhatə edən problemlərinin müəyyənləşdirilməsi, arxetiplər, metakonseptlər, fon bilikləri və s. bu kimi ümumbəşəri və ya unikal mahiyyətli anlayış ümumiləşdirmələrinin dərki və təhlilində yeni səviyyə əldə edir |
| **FTN 2.** Semantikanın müasir təhlil istiqamətləri üzrə əsas linqvistik cərəyanların metadoloji çərçivəsini və bu cərəyanlara söykənən elmi-nəzəri metodologiyanı dərk edir və onları real dil faktları və materiallarına tətbiq edərək təhlil edir. |
| **FTN 3.** Semantika sahəsində tədqiqat aparmaq məqsədi ilə metodoloji bazanı müəyyənləşdirə bilir. |
| **FTN 4.** Semantikanın humanitar və sosial elmlərin (o cümlədən, psixologiya, etnoqrafiya, antropologiya, tarix, ədəbiyyatşünaslıq və s.) problemlər və nəzəri müddəaları ilə əlaqələndirərək fənlərarası çərçivədə dərk və təhlil edir. |
| **FTN 5.** Semantikanın elminin yeni istiqamətlərinin konkret nümunələr əsasında müasir dilçiliyin aktual problemləri, prioretləri və gələcək perspektivləri haqqında müstəqil fikir və mülahizələr irəli sürür. |
| **FTN 6.** Semantikanın universal və unikallıq səviyyəsində təzahür tapan elementlərinin, anlayış ümumiləşdirmələrinin dil-cəmiyyət əlaqələndirilməsi sayəsində tədqiq edir və dəyərləndirir; mədəniyyətlərarası dialoq formatında lakunaları ərsəyə gətirən amillərin mahiyyətini açıqlayır. |
| **“Dil və ünsiyyət” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Dil və ünsiyyət fənni çərçivəsində əldə edilmiş nəzəri biliklərə əsaslanaraq ünsiyyət nəzəriyyəsinin problemlərini müəyyənləşdirir, dərki və təhlilində yeni səviyyə əldə edir, habelə kommunikativ uğursuzluqların arxasında dayanan səbəblərin linqvistik rakursdan təhlilini aparır. |
| **FTN 2.** Dil və ünsiyyətin qarşılıqlı şərtləndirmə mexanizmlərinin təhlili çərçivəsində cəmiyyət şərtləndirməsini, fərdi kimlik təsirinin səviyyəsini müəyyənləşdirir və onların araşdırma metodlarını mənimsəyir və tədris prosesi çərçivəsində tətbiq edir. |
| **FTN 3.** Dil və ünsiyyət sahəsində tədqiqat aparmaq məqsədi ilə metodoloji bazanı müəyyənləşdirə bilir. |
| **FTN 4.** Ünsiyyət nəzəriyyəsinin problemlərini humanitar və sosial elmlərin (o cümlədən, psixologiya, etnoqrafiya, tarix, sosiologiya, tarix, ədəbiyyatşünaslıq, kulturologiya və s.) problemlər və nəzəri müddəaları ilə əlaqələndirərək fənlərarası çərçivədə dərk və təhlil edir. |
| **FTN 5.** Ünsiyyət nəzəriyyəsinin yeni istiqamətlərinin təklif etdiyi araşdırma formatı çərçivəsində (Yunq dixotomiyaları, dil kimliyi nəzəriyyəsi/linqvopersonologiya, qrafoloji diaqnostika və s.) kommunikativ müvəffəqiyyətin reallaşmasını təmin edən ünsiyyət dəyərləndirmələrini, ünsiyyət formatını müəyyənləşdirir, mədəniyyətlərarası dialoqda mühüm rol oynayan semantik deşifrə adekvatlığının nəzəri əsaslarını müəyyənləşdirir. |

| |
|---|
| **FTN 6.** Müasir nəzəri mənbələrdə aparıcı ideya və fikirlərə istinad edərək dil və ünsiyyət probleminin real və virtual formatdakı çüzümünü müəyyən edən məqamlarını təsbit edir. |
| **“Paralinqvistika” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Fənn çərçivəsində əldə edilmiş nəzəri biliklərə əsaslanaraq paralinqvistika sahəsinin problemlərini müəyyənləşdirir, dərki və təhlilində yeni səviyyə əldə edir. |
| **FTN 2.** Paralinqvistikanın ayrı-ayrı şöbələr üzrə aparılan araşdırmalar haqqında məlumatı əldə edir, paralinqvistikanın müxtəlif istiqamətlərinin (bədən dili, qrafologiya, proksemika və s.) inkişaf səviyyəsini müəyyənləşdirir. |
| **FTN 3.** Paralinqvistika sahəsində tədqiqat aparmaq məqsədi ilə, yəni müstəqil psixodiaqnostikanın gerçəkləşdirilməsi məqsədilə müvafiq yardımçı metodoloji bazanı müəyyənləşdirə bilir və mənimsəyir. |
| **FTN 4.** Paralinqvistikanın problemlərini psixologiya, sossiologiya, ünsiyyət nəzəriyyəsi, kulturologiya, tarix, etnoqrafiya, antropologiya və s. elm sahələrinin problemləri və nəzəri müddəaları ilə əlaqələndirərək fənlərarası çərçivədə dərk və təhlil edir. |
| **FTN 5.** Paralinqvistika elminin yeni istiqamətlərinin konkret nümunələr əsasında müasir dilçiliyin aktual problemləri, prioretləri və gələcək perspektivləri haqqında müstəqil fikir və mülahizələr irəli sürür. Konkret video, audio və mətn formatlı materaillar əsasında təhlil və diaqnostikanı aparır. |
| **FTN 6.** Müasir nəzəri mənbələrdə aparıcı ideya və fikirlərə istinad edərək, habelə müasir bədən dili araşdırmalarının, fərqli istiqamətli paraliqnvistik tədqiqatların dil və nitq formatında verbal reallaşmada təzahürünü müəyyənləşdirir. |
| **“Multikulturalizmə giriş” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Multikulturalizmin mahiyyəti, onun yaranmasının səbəbləri, əhəmiyyəti haqqında əldə etdiyi biliklərdən istifadə edir. |
| **FTN 2.** Müasir ictimai-fəlsəfi fikir tarixində olan tolerantlıq, multikulturalizm ideyaları ilə, eləcə də mültikulturalizmin nəzəri-ideoloji əsasları ilə bağlı biliklərdən nəticə çıxarır. |
| **FTN 3.** Dinin mahiyyəti, onun meydana gəlməsi, müasir dünyada dinin yeri və roluna dair nəzəriyyələrdən ümumiləşdirmələr aparır. |
| **FTN 4.** Buddizm, Xristianlıq, İslam, Zərdüştilik, Yəhudilik, Konfutsiçilik, Daosizm, Şintoizm, Hinduizm, Caynizm, Siqhizm kimi dinlərdən, qədim türk inancları haqqında ətraflı məlumat toplayaraq onları müqayisəli şəkildə təhlil edir. |
| **FTN 5.** Dini radikalizm və onunla mübarizə yollarını araşdırır. |
| **FTN 6.** Etnik-mədəni müxtəlifliyin qorunması və multikulturalizm siyasətinin səmərəliliyinin ölçülməsinin indikatorları ilə işləyir. |
| **FTN 7.** Bir neçə Qərb ölkəsinin etnik-mədəni müxtəlifliyin tənzimlənməsi sahəsində apardığı təcrübəyə yiyələnmək və tətbiq edir. |
| **FTN 8.** Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən multikulturalizm siyasətinin əsas istiqamətlərini, o cümlədən multikulturalizmin Azərbaycan modelinin mahiyyətini, xüsusiyyətlərini və nailiyyətlərini dərk edərək gələcək fəaliyyətlərində tətbiq edir. |
| **“Kommunikativ qrammatika” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Nitqdə dil sisteminin modelləşdirilməsi istiqamətində fəal istifadə edilən funksional və kommuinikativ qrammatikanın qarşılıqlı əlaqəsini bilir. |
| **FTN 2.** Funksional qrammatikaya fərqli yanaşma və metodologiyanın morfoloji səviyyədə funksional-qrammatik dil hadisələrinin təsvirini bacarır. |
| **FTN 3.** Danışan və dinləyənin uğurlu kommunikasiya üçün vacib olan kommunikativ morfologiyanın məna bazasını quraşdırmağı bacarır. |
| **FTN 4.** Semasioloji funksional morfologiyanın ümümi sistem qismində təhlil etməyi bacarır. |
| **FTN 5.** Dil vahidləri arasında mövcud olan ierarxik münasibətlərin nitq səviyyəsində önəmini bilir. |
| **FTN 6.** Kommunikativ morfologiyanın nitq daşıyıcıları üçün linqvistik və məntiqi bazasını strukturlaşdırmağı bacarır. |
| **“Proqressiv fonetika “ fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** İzah zamanı fonetik vahidlər haqqında verilən informasiyanı anladıgını nümayiş etdirir. |
| **FTN 2.** Dinlədiyi kiçik dialoqlar və ya cümlələri təkrar edir və səs- qrafem münasibətlərini fərqləndirir, təhlil edir və çalışmalarda tətbiq edir. |

| |
|---|
| **FTN 3.** Dinlədiyi və ya oxuduğu materialda hərf və hərf birləşmələrinin ifadə etdiyi səslərin fonetk mövqe və vəziyyətdən asılı olduğunu müəyyən edə bilir. |
| **FTN 4.** Orfoqrafia qaydalardan istifadə edərək kiçik cümlələri düzgün tələffüz edir. |
| **FTN 5.** Öyrəndiyi seqment və superseqment vahidləri nitqinə daxil edərək kiçik cümlələr qurur. |
| **FTN 6.** Dinlədiyi və oxuduğu çalışma və ya kiçik mətnlərdə fonetik vahidləri və fonetik hadisələri tanıyır və ayırd edir. |
| **"Fransız filologiyasına giriş" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Müasir fransız dilinin xüsusiyyətlərini müəyyən edir. |
| **FTN 2.** Frankofoniyanın linqvistik xəritəsini tərtib edir. |
| **FTN 3.** Fransız filologiyası fənnində əldə olunmuş bilikləri digər fənlərin öyrənilməsində istifadə edir. |
| **FTN 4.** Fransız dili ilə bağlı linqvistik problemlərini faktiki material əsasında təhlil edir. |
| **FTN 5.** Fransızdilli ölkələrdə fransız dili variantlarının ümumi xüsusiyyəti barədə bacarıqlara yiyələnir. |
| **FTN 6.** Qazanılan bilikləri gələcəkdə tədqiqat işlərinin hazırlanmasında tətbiq edir. |
| **"Oxuyub anlama" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Mətnin yazı səviyyəsindən anlama səviyyəsinə çatdırılmasına nail olur. |
| **FTN 2.** Dərs zamanı oxuyub anlama metodlarını mənimsəyərək həqiqi situasiyalarda tətbiq edir. |
| **FTN 3.** Hər bir mətn sayəsində yeni söz bazasını, həyat bilgisini, dilin qrammatik strukturunu inkişaf etdirir. |
| **FTN 4.** Bir mətndə kimdən, nədən , danışıldığı anlaşılır verilən informasiyanı dərk edir. |
| **FTN 5.** Dinlədiyi kiçik mətndə səbəb, nəticə, xronoloji əlaqələri aşkarlayır. |
| **FTN 6.** Oxuduğu çalışma və ya kiçik mətnlərdə dil fenomenlərini, uzlaşma,feil formaları,cümlə tiplərini ayırd edir. |
| **"Mətnin qrammatik təhlili" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Verilən mətnlərdəki informasiyanı anladıgını nümayiş etdirir. |
| **FTN 2.** Verilən mətnlə bağlı sualları qanedici cavablandırır və qrammatik qaydaları çalışmalarda tətbiq edir. |
| **FTN 3.** Qrammatik qaydaların hansı situasiyada işlənmə səbəblərini izah edir. |
| **FTN 4.** Mətndən seçilən cümlələri qrammatik təhlilini aparır. |
| **FTN 5.** Öyrəndiyi qrammatik vahidləri nitqinə daxil edir. |
| **FTN 6.** Oxuduğu çalışma və ya mətnlərdə qrammatik vahidləri fərqləndirir. |
| **" Akademik yazı və oxu" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Yazı vərdişlərini inkişaf etdirir. |
| **FTN 2.** Müxtəlif yazı çalışmaları, CV, niyyət məktubu, esse yazmağı öyrənir. |
| **FTN 3.** Oxu vərdişlərini müxtəlif mövzu və üsulları əhatə edən yazılı materialların dərs prosesində təhlilləri ilə inkişaf etdirir. |
| **FTN 4.** İctimai-siyasi sahələri əhatə edən qəzet informativ xarakterli məqalələri öyrənir. |
| **FTN 5.** Oxu vərdişlərini təkmilləşdirir. |
| **FTN 6.** Verilən materiallarda yazı qabiliyyətlərini mükəmməl inkişaf etdirir. |
| **"Fransada jurnalistika və media" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Müasir Fransız dövrü mətbuatı məqalələrinin üslubi baxımdan fərqləndirilməsinə nail olur. |
| **FTN 2.** Fransa və fransızdilli ölkələrin kütləvi informasiya vasitələrinin radio, televiziya və mətbuatın xüsusiyyətlərini fərqləndirir. |
| **FTN 3.** Fransız jurnalistikasının özünəməxsus cəhətlərinin müəyyənləşdirilməsi bacarığını formalaşdırır. |
| **FTN 4.** Fransız dilində müxtəlif ictimai mövzular ətrafında məqalər yazmağı bacarır. |
| **FTN 5.** Fransız dilində media resurslarının axtarışı, təhlili, istifadə bacarığına yiyələnir. |
| **FTN 6.** Fransa elektron media resurslarının araşdırma və təhlil bacarığına yiyələnir. |
| **"Fransa regionları" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** İzah zamanı fonetik vahidlər haqqında verilən informasiyanı anladıgını nümayiş etdirir. |
| **FTN 2.** Dinlədiyi kiçik dialoqlar və ya cümlələri təkrar edir və səs- qrafem münasibətlərini fərqləndirir, təhlil edir və çalışmalarda tətbiq edir. |
| **FTN 3.** Dinlədiyi və ya oxuduğu materialda hərf və hərf birləşmələrinin ifadə etdiyi səslərin fonetk mövqe və vəziyyətdən asılı olduğunu müəyyən edə bilir. |
| **FTN 4.** Orfoqrafia qaydalardan istifadə edərək kiçik cümlələri düzgün tələffüz edir. |
| **FTN 5.** Öyrəndiyi seqment və superseqment vahidləri nitqinə daxil edərək kiçik cümlələr qurur. |
| **FTN 6.** Dinlədiyi və oxuduğu çalışma və ya kiçik mətnlərdə fonetik vahidləri və fonetik hadisələri tanıyır və ayrıd edir. |

| |
|---|
| **“Ədəbi komparativistika” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Müqayisəli-tarixi məktəbin inkişaf istiqamətlərini aydın təsəvvür edir. |
| **FTN 2.** Ümümdünya tarixi-ədəbi prosesinin ayrı-ayrı inkişaf mərhələlərini, qanunauyğunluqlarnıı və nəzəri-təcrübi nailiyyətlərini müqayisəli şəkildə öyrənir. |
| **FTN 3.** Bədii mətnlərin müqayisəli və tipoloji təhlil vərdişlərinə yiyələnir. |
| **FTN 4.** Müasir ədəbi prosesin əsas təmayüllərini (magik realizm, antiutopiya, itirilmiş nəsil, və s.) nəzərdən keçirtmək və ədəbi nümunələr əsasında müqayisəli səciyyələndirir. |
| **FTN 5.** Tanınmış müəlliflərinin müxtəlif janrlarda yazılmış ədəbi nümunələrinin oxşar və fərqli cəhətlərini araşdırır. |
| **“Bədii ədəbiyyatda elmi-fantastika janrı” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Fantastika janrının keçdiyi inkişaf mərhələlərini müəyyənləşdirir. |
| **FTN 2.** Elmi-fantastik ədəbiyyatın başlıca xüsusiyyətlərini araşdırır. |
| **FTN 3.** Bədii ədəbiyyatın bir qolu olan elmi-fantastikanın əsasında duran bədii təsvir və ifadə vasitələrindən istifadə qaydalarını müəyyənləşdirir. |
| **FTN 4.** Dünya ədəbiyyatında elmi-fantastikanın janr olaraq formalaşmasında xidməti olmuş yazıçıların həyat və yaradıcılığını təhlil edir. |
| **FTN 5.** Elmi-fantastik əsərləri təhlil etməklə müəllif tərəfindən qoyulan problemləri araşdırmaq və müasir dövrlə paralellər aparır. |
| **“Bədii ədəbiyyatda antiutopiya janrı” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Utopiyanın əsas xüsusiyyətlərini müəyyənləşdirməyi bacarır. |
| **FTN 2.** Antiutopoiya ədəbiyyatının əsas xüsusiyyətlərini araşdırmağı bacarır. |
| **FTN 3.** XX əsr antiutopiya ədəbiyyatının inkişafının əsas meyllərini izah edir. |
| **FTN 4.** XX əsr antiutopiya ədəbiyyatında romanların janr xüsusiyyətlərini təsnif edir. |
| **FTN 5.** Sillabusda qeyd olunan müəlliflərin əsərlərini təhlil etmək və ədəbi nümunələr əsasında müqayisəli səciyyələndirir. |
| **FTN 6.** Tələbələrin müstəqil fikir yürütməsinə, səlist nitq mədəniyyətinə yiyələnməsinə üstünlük verir. |
| **“Qərb dramaturgiyası” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Qərb dramaturgiya tarixininin ümumi səciyyəsini verir və ayrı-ayrı mərhələlərinin xüsusiyyətlərini müəyyənləşdirir. |
| **FTN 2.** Müxtəlif dövrlərdə dramaturgiyada baş vermiş mühüm hadisələri dərk edir və hər dövrə aid ədəbi istiqamət və məktəblərin müvafiq ölkə üzrə nümayəndələrinin fərqli janrlarda (komediya, faciə, dram) yazılmış ədəbi nümunələrini mənimsəyir. |
| **FTN 3.** Qərb dramaturqlarının həyat və yaradıcılığı barəsində dolğun biliklərə yiyələnir, əsərləri ilə tanış olur, onların fəlsəfi və estetik görüşlərini təhlil edir. |
| **FTN 4.** Dram əsərlərinin üslubi xüsusiyyətləri, əsas ideya və mövzuları haqqında nəzəri-təcrübi məlumat əldə edir. |
| **FTN 5.** Öyrənilən dram əsərlərinin əsas mənbələrini araşdırmağı bacarır. |
| **FTN 6.** Dram əsərlərinin ümumdünya ədəbi prosesinə təsirini və ordakı mövqeyini şərh edir. |
| **“Ədəbiyyatda psixologizm” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Fənnin dərki üçün zəruri olan düşünmə proseslərini və analitik bacarıqları inkişaf etdirir. |
| **FTN 2.** Diskussiyalar yolu ilə əsərlərdəki mürəkkəb və ziddiyyətli məsələlərə aydınlıq gətirir. |
| **FTN 3.** Tələbələrdə əsərləri düzgün dəyərləndirir, onlardan düzgün nəticə çıxarmaq bacarığı formalaşdırır. |
| **FTN 4.** Ədəbi hadisələrin, mərhələlərin praktiki əhəmiyyətini, insan və cəmiyyətin mövcud və potensial həyatına təsir imkanlarını aydınlaşdırır. |
| **FTN 5.** Tələbələrdə yazılı və şifahi ünsiyyət, diskussiya, dialoq, eləcə də tədqiqat və qrupla işləmək vərdişlərini inkişaf etdirir. |
| **“XX əsr ədəbiyyatında mifoloji motivlər” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Mifoloji düşüncə tərzi və dünya modelinin bərpasının çağdaş mifologiya vasitəsilə təsviri haqqında məlumat əldə edir |
| **FTN 2.** Mifologiyanın bir elm kimi yaranması, tarixi, çağdaş dövrdəki xüsusiyyətlərini şərh etməyi bacarır. |
| **FTN 3.** Əsas mif nəzəriyyələrinin müasir ədəbi prosesə təsirini aydınlaşdırır. |
| **FTN 4.** XX əsr ədəbiyyatının görkəmli yazıçıların yaradıcılığında mifoloji elementləri araşdırır. |
| **FTN 5.** Çağdaş ədəbiyyatda mövcud olan mifik surətlərin ideya-məzmun xüsusiyyətlərini təhlilə cəlb edir. |

| |
|---|
| **“Mətnin poetik təhlili” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Poetik təhlilin sinxron təsviri, onun emosional, ekspressiv-estetik dəyərlilik dərəcəsini müxtəlif səviyyələr üzrə səciyyələndirir. |
| **FTN 2.** Mətni başa düşmə dərinliyini (mövzu, janr, süjet, personajlar, kompozisiya, üslub, istiqamət, bədii fikir), həmçinin düşüncə və hissləri ifadə etmək bacarığına yiyələnir. |
| **FTN 3.** Müəllif mövqeyini müəyyənləşdirmək vərdişlərini qazanır. |
| **FTN 4.** Lirik qəhrəman obrazının qavranılması, onu şərh etmək və müəllifin poetik şəxsiyyətini xarakterizə etməyi bacarır. |
| **FTN 5.** Mətnin arxitektonik xüsusiyyətləri, quruluş, əsərin məkan-zaman prinsiplərinin təhlili, obrazlar sistemi və poetik dil, intertekstual elementləri müəyyənləşdirməyi öyrənir. |
| **“Ədəbiyyat və incəsənət” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Antik, orta əsrlər, intibah, maarifçilik dövrlərində ədəbiyyatın digər incəsənət növləri ilə əlaqələrini aydınlaşdırır. |
| **FTN 2.** Qərb-Şərq incəsənətinin xüsusiyyətlərini müqayisəli səciyyələndirir. |
| **FTN 3.** Bədii mətnlərdə intermediallığın əlamətlərini müəyyənləşdirir. |
| **FTN 4.** Müasir dövrdə incəsənətin yeni yaranan qolları ilə ədəbiyyatın münasibətini şərh edir. |
| **FTN 5.** Diskusiyalar yolu ilə incəsənətin mürəkkəb və ziddiyyətli məsələlərinə, ədəbi hadisələrin insan və cəmiyyətin mövcud və potensial həyatına təsir imkanlarına aydınlıq gətirir. |
| **“XX əsr qadın ədəbiyyatı” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Ədəbi cərəyan və istiqamətlərin nümayəndələri olan qadın yazıçılarının yaradıcılıqlarının bədii xüsusiyyətlərini müəyyənləşdirir. |
| **FTN 2.** Regional, milli, dünya ədəbiyyatında qadının tarixi mövcudluğunu əks etdirən problemləri müəlliflərin əsərlərindən seçib izah edir. |
| **FTN 3.** Qadın nəsri və poeziyasının dili və üslubu haqqında ədəbi-nəzəri fikirlərin araşdırıb təhlil edə bilir. |
| **FTN 4.** Yeni yaradıcılıq istiqamətinin psixologiyasını qadın yazıçılarının yaradıcılıq prizmasından öyrənir. |
| **FTN 5.** XX əsr ədəbiyyatının aparıcı qollarından biri olan qadın nəsri və poeziyasının müasir durumu və problemləri haqqında dolğun təsəvvür formalaşdırır. |
| **“Müasir ədəbi proses” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Bədii yaradıcılığın mərhələlərini öyrənir. |
| **FTN 2.** Ədəbiyyat nəzəriyyəsi ilə bağlı bilikləri genişləndirir. |
| **FTN 3.** Ölkə ədəbiyyatının ümumdünya ədəbi prosesinə təsirini müəyyənləşdirməyi bacarır. |
| **FTN 4.** Ümumdünya tarixi-ədəbi prosesinin ayrı-ayrı inkişaf mərhələlərini, qanunauyğunluqlarını və nəzəri-təcrübi nəaliyyətlərini müqayisəli şəkildə öyrənir. |
| **FTN 5.** Sillabusda qeyd olunan müəlliflərin əsərlərini təhlil edir və ədəbi nümunələr əsasında müqayisəli səciyyələndirir. |
| **“Bədii təhlil üsulları” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Bədii mətnin müxtəlif aspektlərdə şərh və təhlilini təmin etməyi bacarır. |
| **FTN 2.** Müəllif mövqeyini müəyyənləşdirmək vərdişlərini qazanır. |
| **FTN 3.** Mətndən çıxış edərək obrazların daxili dünyasını, xarakterini, mövqeyini, psixoloji durumunu müəyyənləşdirməyi bacarır. |
| **FTN 4.** Əsərin aid olduğu dövrü nəzərə alaraq zaman-məkan prinsiplərini təhlil etməyi öyrənir. |
| **FTN 5.** Mətnin aid olduğu ədəbi istiqamət və ya cərəyanların, xüsusiyyətləri baxımından ədəbi metodlarla şərh etməyi formalaşdırır. |
| **“XX əsr Qərbi Avropa ədəbiyyatının əsas təmayülləri” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Müasir dövr dünya ədəbiyyatının ilkin mədəni inkişafı haqqında elmi biliyə yiyələnir. |
| **FTN 2.** Kulturoloji inkişaf nöqteyi nəzərindən mədəniyyətlər üzrə ədəbi-mədəni inkişaf mərhələlərinin elmi təsvirini və təhlillərini aparır. |
| **FTN 3.** XX əsrdə yaranan cərəyanlar haqqında elmi biliyə yiyələnmək və təhlil aparır. |
| **FTN 4.** Yaradıcı şəxs kimi müəllifə dövrün ictimai, siyasi, iqtisadi amillərin təsirini və onun mədəni-tarixi səbəblərini müəyyənləşdirir. |
| **FTN 5.** Ədəbi mətnlərdə obrazların xarakterik cəhətlərini elmi-ədəbi təhlillər vasitəsilə açır. |
| **FTN 6.** Əsərlərdə hadisələrin elmi və bədii təhlilini verir, ədəbi müqayisələr aparır. |

**Əlavə 2**

## Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi
## Filologiya - Dil və ədəbiyyat (fransız dili)

| Blokun adı | Fənlərin adı | Proqram təlim nəticələri | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 | PTN 9 | PTN 10 | PTN 11 |
| **Ümumi fənlər** | Azərbaycan tarixi | X | | | | | | | | | | |
| | Azərbaycan dilində İAK | X | X | X | | | | | X | | | |
| | Xarici dildə İAK | X | X | | | | | | X | X | | |
| | ATM. Fəlsəfə | X | X | | | | | | | | | |
| | ATM. AR konstitusiyası və hüququn əsasları | X | | | | | | | | | | |
| | ATM. Məntiq | X | X | | | | | | | | | |
| | ATM. Etika və estetika | X | X | | | | | | | | | |
| | ATM. İnformasiya texnologiyaları (ixtisas üzrə) | X | X | | | | | | | | | |
| | ATM. Politologiya | X | X | | | | | | | | | X |
| **İxtisas fənləri** | Dilçiliyə giriş | X | X | X | X | X | X | | | | | |
| | Ədəbiyyatşünaslığa giriş | X | | | | | | X | X | | X | |
| | Şifahi xalq ədəbiyyatı (fransız) | X | | | | | | X | | X | | |
| | Dil tarixi | X | | X | X | | X | | | | | |
| | Məntiq və tənqidi təfəkkür | X | | | | | | | | | | |
| | Öyrənilən əsas dil | X | X | X | | X | | | X | | | X |
| | Ölkə ədəbiyyatı tarixi | X | | | | | | X | | X | X | |
| | Dünya ədəbiyyatı | X | | | | | | X | | X | X | |
| | Qədim dil | | X | X | | | | | | | | |
| | Ölkəşünaslıq | X | | | | | | | | | | X |
| | Psixologiya | X | | | | | | | | | | |
| | Ümumi dilçilik | X | | | X | X | X | | | | | |
| | Ədəbiyyat nəzəriyyəsi | X | | | | | | X | | X | X | |
| | Üslubiyyat və ritorika | X | X | X | | X | X | X | X | | | |
| | Müasir informasiya-kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi | X | X | | | | | | | | | |
| | Mülki müdafiə | X | | | | | | | | | | |
| **ATM fənləri** | Dil və cəmiyyət | X | X | X | X | | | | | | | X |
| | Dilçiliyin tarixi | X | X | X | X | X | X | | | | | |
| | Linqvistik tipologiya | X | X | X | | X | X | | | | | |
| | Semantik universalilər və unikalilər | X | X | X | | X | | | | | | X |
| | Dil və ünsiyyət | X | | X | | X | X | | | | | |
| | Paralinqvistika | X | | X | | X | X | | | | | |
| | Multikulturalizmə giriş | X | | X | | | | | | | | X |
| | Kommunikativ qrammatika | | | X | | X | | | | | | |
| | Proqressiv fonetika | | | | | X | | | | | | |
| | Fransız filologiyasına giriş | | | | | | | | | X | X | |
| | Oxuyub anlama | | X | | | X | | | | | | |
| | Mətnin qrammatik təhlili | | | X | | X | | | | | | |
| | Akademik yazı və oxu | X | X | X | | | | X | X | | | |
| | Fransada jurnalistika və media | X | | X | | | | | | | | X |
| | Fransa regionları | | | | | | | | | | X | X |
| | Ədəbi komparativistika | X | X | | | | X | X | | X | X | |
| | Bədii ədəbiyyatda elmi fantastika janrı | X | X | | | | | X | | X | X | |
| | Bədii ədəbiyyatda antiutopiya janrı | X | X | | | | | X | | X | X | |
| | Qərb dramaturgiyası | X | X | | | | | | | X | X | |
| | Ədəbiyyatda psixologizm | X | X | | | | | | | X | X | |
| | XX əsr ədəbiyyatında mifoloji motivlər | X | X | | | | | | | X | X | |
| | Mətnin poetik təhlili | X | X | | | | | X | X | X | X | |
| | Ədəbiyyat və incəsənət | X | X | | | | | | | X | X | |
| | XX əsr qadın ədəbiyyat | X | X | | | | | | | X | X | |
| | Müasir ədəbi proses | X | X | | | | X | X | | X | X | |
| | Bədii təhlil üsulları | X | X | | | | | X | X | X | X | |
| | XX əsr Qərbi Avropa ədəbiyyatının əsas təmayülləri | X | X | | | | X | X | | X | X | |

**Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri**

**Dil və ədəbiyyat (Azərbaycan dili)**

Ali təhsil müəssisəsi Təhsil Proqramı və hər fənn üzrə gözlənilən təlim nəticələrini müəyyən etməlidir.

| Təhsil Proqramının təlim nəticələri (PTN) |
|---|
| **PTN 1.** Yüksək yaradıcı və tənqidi təfəkkürə, vətənpərvərliyə, geniş erudisiyaya, sosial-siyasi məsuliyyətə, yazılı və şifahi nitq vərdişlərinə yiyələnir, bir neçə xarici dildən sərbəst istifadə etməyi bacarır. |
| **PTN 2.** Empirik və analitik tədqiqat vərdişlərini inkişaf etdirir; müqayisə, qarşılaşdırma, analiz və sintez kimi elmi-akademik bacarıqlar formalaşdırır; sahə işi, məlumatın toplanması, emalı və sistemləşdirilməsi vərdişlərini əldə edir. |
| **PTN 3.** Dilin müxtəlif funksional üslublarını müvafiq situasiyalarda uğurla tətbiq edir; dil vərdişlərini praqmatik-kommunikativ, mədəniyyətlərarası ünsiyyət, sosiolinqvistik kompetensiya baxımından istifadə edir; bütün bunların əsasında konkret dil materialını və mətnin qurulması xüsusiyyətlərini təhlil edir. |
| **PTN 4.** Dilin tarixi inkişaf mərhələlərini əks etdirən mətnləri ayırd edir; ədəbi qaynaqlarda müvafiq dövrü əks etdirən dil xüsusiyyətlərini anlayır və təhlil edir. |
| **PTN 5.** Dilin sistemini, strukturunu, mahiyyətini, funksiyalarını, eləcə də dil vahidlərinin özəlliklərini anlayır; bunların elmi izahını verir; bunları mətn daxilində ayırd edir və təhlil edir. |
| **PTN 6.** Ayrı-ayrı dilçilik məktəbləri/cərəyanları və onların məşğul olduqları problemlər haqqında müfəssəl bilik əldə edir; bu məktəbləri/cərəyanları qarşılaşdırmalı şəkildə təhlil edir; dilin sisteminin/strukturunun tədqiqatı baxımından məktəblərin/cərəyanların tənqidi təhlilini verir; dillə bağlı müasir dövrdə hansı araşdırma istiqamətlərinin (və nə üçün) prioritet təşkil etməli olduğu haqda şəxsi mülahizə yürüdə bilir. |
| **PTN 7.** Ədəbi formaları, janrları, ədəbi-bədii üslubları anlayır, mətn daxilində ayırd edir və ədəbi əsərləri bu aspektlər baxımından təhlil edir. |
| **PTN 8.** Bədii təsvir və ifadə vasitələrini mənimsəmək, ayırd edə bilmək və yazılı və şifahi nitq prosesində - lazım gəldiyində və ya verilən tapşırığın bir hissəsi kimi tətbiq edir. |
| **PTN 9.** Ədəbi mətni oxuyub təhlil etmək və ədəbi əsərdə qoyulmuş problemi müəyyən edib bu haqda sərbəst mülahizə yürüdür. |
| **PTN 10.** Müasir ədəbi prosesləri anlayır və bu proseslərin müasir dövrün müxtəlif tendensiyalarını, problemlərini, prioritetlərini və s. nə cür əks etdirdiyi haqda mülahizələr irəli sürür. |
| **PTN 11.** İxtisas dilinin əsas dil olduğu ölkə(lər)in/region(lar)ın tarixi, coğrafi, siyasi, mədəni, etnoqrafik və sosial xüsusiyyətləri ilə bağlı təməl biliklərə sahib olur. |

## Fənn üzrə təlim nəticələri (FTN)

| “Azərbaycan tarixi” fənni üzrə təlim nəticələri |
|---|
| **FTN 1.** Azərbaycanın dünyanın ən qədim yaşayış məskənlərindən,ilk sivilizasiya məkanlarından biri olmasım müəyyən etməyi bacarır. |
| **FTN 2.** Azərbaycanın müxtəlif dövrlərdə dövlətçiliyinin təşəkküllü şəraitini, siyasi, beynəlxalq amilləri təhlil etməyi bacarır. |
| **FTN 3.** Azərbaycanda milli-dövlətin təşəkkülü, formalaşmasında ideoloji, iqtisadi və mədəni amillərin rolunu təhlil etməyi bacarır; azərbaycançılıq ideologiyasını dərk edir. |
| **FTN 4.** Müxtəlif dövrlərdə Azərbaycan dövlətçiliyinin zəifləməsinə təsir göstərmiş xarici və daxili amilləri təhlil etməyi və ümumiləşdirməyi bacarır. |
| **FTN 5.** Azərbaycan dövlətinin müasir dünyada yeri və rolunu sistemli şəkildə öyrənir. |
| **FTN 6.** Azərbaycan tarixinin inkişafının tarixi təcrübəsindən düzgün nəticələr çıxarmağı bilir. |
| **FTN 7.** Müasir mərhələdə Azərbaycan dövlətçiliyinin güclənməsini şərtləndirən amilləri, şəxsiyyətin rolunu təhlil və müəyyən etməyi bacarır. |
| **“Azərbaycan dilində işgüzar və akademik kommunikasiya” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Qloballaşma şəraitində Azərbaycan dili və ona göstərilən dövlət qayğısı ilə bağlı məlumatlara yiyələnir; Dövlət dili haqqında fərman və sərəncamlar, “Ulu öndər Heydər Əliyev və Azərbaycan dili” mövzusunda təqdimatlar hazırlamağı öyrənir; “Azərbaycan dilində işgüzar və akademik kommunikasiya” fənninin məqsəd və vəzifələrini bilir. Kommunikasiyanın forma və funksiyaları, kommunikasiya səviyyələri barədə biliklərə sahib olur. |
| **FTN 2.** Akademik kommunikasiya prosesində köməkçi nitq hissələrinin rolunun nədən ibarət olduğunu mənimsəyir; şifahi və yazılı kommunikasiyalar, habelə nitqə verilən tələblər: nitqin düzgünlüyü, dəqiqliyi, aydınlığı, səlisliyi, təmizliyi, yığcamlığı, sadəliyi, zənginliyi, rabitəliliyi və digər önəmli məsələlərin rolunu müasir tələblər səviyyəsində öyrənir. |
| **FTN 3.** Kommunikasiya ritorikasının nədən ibarət olduğunu, ədəbi dilin üslublarını, Azərbaycan ədəbi dilinin aktiv və passiv leksikasını bilir, ədəbi dil, kommunikativlik, kommunikativliyin növləri, kommunikativlikdə rabitə və kommunikativ strategiya və yaradıcılıq texnologiyalarını mənimsəyir. |
| **FTN 4.** Dinləmə mədəniyyəti və dinləmənin kommunikasiya növü kimi mahiyyətini öyrənir; dinləmə və diq-qət, dinləmə formaları, dinləmə bacarıqlarının təkmilləşdirilməsinin önəmini qavrayır; kommunikasiya mədə-niyyəti, danışıq etikası və müraciət etiketləri barədə məlumatlara yiyələnir; təşkil olunmuş nitqin (mühazirə, məruzə, çıxış, spontan nitq) özünəməxsusluğunu bilir; şifahi şəkildə işgüzar konununikasiya yaradır. |
| **FTN 5.** Müasir Azərbaycan dilinin işgüzar üslubu barədə məlumatları və qaydalar öyrənir; İşgüzar kommunikasiyada məktubların rolu, elektron və onlayn kommunikasiyalar barədə biliklərini zənginləşdirir; yazılı şəkildə işgüzar kommunikasiya yaradır. |
| **FTN 6.** Rəsmi-işgüzar sənədlərin dili barədə məlumatları öyrənir; işgüzar kommunikasiyaların növləri və formaları, həmçinin dili və üslubu barədə məlumatlara yiyələnir; işgüzar kommunikasiyada Azərbaycan dilinin saflığının, orfoqrafiya qaydalarının və cümlə quruluşuna əməl olunmasının mahiyyətini öyrənir; işgüzar ritorika haqqında nəzəri və praktik çalışmalara sahib olur. |
| **FTN 7.** Azərbaycan dilində ixtisas üzrə yazılı və şifahi təqdimatlar hazırlamağı bacarır. |
| **“Xarici dildə işgüzar və akademik kommunikasiya” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Yazılı və şifahi nitq prosesində xülasələşdirmək, parafraz etmək, sintez etmək kimi bacarıqlar nümayiş etdirir. |
| **FTN 2.** Nisbətən mürəkkəb mətnləri oxuyub təhlil edə bilir; dinlədiyi və oxuduğu mətnin (ixtisasına uyğun elmi, ictimai-siyasi və s.) icmalını təqdim edə bilir. |
| **FTN 3.** Müəyyən edilmiş məqsədə uyğun yazı strategiyaları seçə bilir; müxtəlif janrlarda yazı nümunələri nümayiş etdirir; yazılı şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| **FTN 4.** Effektiv ünsiyyət yaratmaq üçün sual müdaxiləsi, empatik dinləmə, məlumatı dəqiqləşdirmə, məlumatı əlavə təfərrüatla zənginəşdirmə və s. kimi texnologiyalara yiyələnir. |
| **FTN 5.** İxtisas sahəsi daxilində müzakirələrdə iştirak edə bilir; şifahi şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| **FTN 6.** Öyrəndiyi dildə yazılı təqdimatlar hazırlamağı bacarır. |
| **FTN 7.** Konkret sual ətrafında rabitəli, məntiqli və adekvat şifahi və yazılı mətn formalaşdırır. |

| **“Fəlsəfə” fənni üzrə təlim nəticələri** |
|---|
| **FTN 1.** Mücərrəd düşünmək, təhlil etmək bacarığı formalaşır. |
| **FTN 2.** Tələbə öyrənir:<br>-əsas kateqoriyalar, prinsiplər, üsullar və qanunlar;<br>-fəlsəfənin formalaşmasının tarixi mərhələləri;<br>-kursun məzmunu, strukturu və funksiyaları |
| **FTN 3.** Fəlsəfənin konseptual-kateqorik aparatını, əsas qanun və prinsiplərini peşə fəaliyyətində tətbiq edir; mücərrəd təfəkkür, təhlil və sintez qabiliyyətini inkişaf etdirmək üçün fəlsəfənin qanun və üsullarından istifadə edir. |
| **FTN 4.** Peşəkar fəaliyyət problemlərinin təhlili (sintezi) üçün fəlsəfi metodologiyanın tətbiqi bacarıqlarına; mücərrəd düşünmə, sosial əhəmiyyətli fəaliyyətlərin təhlili və sintezi qabiliyyətini inkişaf etdirmək üçün fəlsəfi biliklərdən istifadə etmək üçün tətbiqi bacarıqlarına yiyələnir. |
| **FTN 5.** Fəlsəfi biliklərin əsaslarından istifadə etmək, öz fəaliyyətinin ictimai əhəmiyyətini dərk etmək üçün tarixi inkişafın əsas mərhələlərini və qanunauyğunluqlarını təhlil etməyi bacarır. |
| **FTN 6.** Tələbənin öz fəaliyyətinin sosial əhəmiyyətini dərk etmək qabiliyyəti formalaşır. |
| **FTN 7.** Fəlsəfi aksiologiya vasitəsilə mənimsənilmiş multikultural dəyərlərin gündəlik həyatda tətbiqi qabiliyyətinə yiyələnir. |
| **“AR konstitusiyası və hüququn əsasları” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Konstitusiyanın 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilməsini və 27 noyabr 1995-ci ildə ümumxalq səsverməsinin nəticələri nəşr edildiyi andan qüvvəyə minməsini öyrənir. |
| **FTN 2.** Konstitusiyalı quruluşun əsaslarını möhkəmləndirərək, Azərbaycan Respublikası Konstitusiyası Azərbaycanı - respublika idarəetmə formasına malik, unitar, demokratik, hüquqi, dünyəvi dövlət kimi müəyyən edir. Konstitusiya özündə ümumbəşəri dəyərləri təsbit etməklə müəyyən prinsipləri müəyyən etdiyi tələbəyə məlum olur. |
| **FTN 3.** Müstəqil Azərbaycanın ilk Konstitusiyası Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoyması hər bir tələbənin ümumi dünyagörüşünün bir parçası olur. |
| **FTN 4.** Tələbəyə aydın olur ki, insan, onun hüquq və azadlıqları ali dəyərlərdir. |
| **FTN 5.** Suverenliyin daşıyıcısı və hakimiyyətin yeganə mənbəyi Azərbaycan xalqının olduğunu öyrənir. |
| **FTN 6.** Azərbaycanın yeni Konstitusiyasının 5 bölməsi, 12 fəsil və 158 maddəsi ilə tanış olur. |
| **“Məntiq” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Problemi aydın və müfəssəl şəkildə izah edir. |
| **FTN 2.** Problemlərin təhlili prosesində məlumatları və faktları səmərəli şəkildə seçir və şərh edir. |
| **FTN 3.** Problem haqqında mövqe ifadə edərkən problemin kontekstini müəyyən edə və təhlil edə bilir. |
| **FTN 4.** Mürəkkəb məsələlərin bir neçə mümkün həlli yolunu müəyyən edir, alternativ mülahizələr irəli sürmə bacarığına yiyələnir. |
| **FTN 5.** Anlayış, hökm və əqli nəticə arasındakı fərqi izah edə bilir. |
| **FTN 6.** Bu bacarıqları akademik, analitik və yaradıcı şifahi və yazı vərdişlərinin inkişafında istifadə edir. |
| **FTN 1.** Problemi aydın və müfəssəl şəkildə izah edir. |
| **FTN 2.** Problemlərin təhlili prosesində məlumatları və faktları səmərəli şəkildə seçir və şərh edir. |
| **“Etika və estetika” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Etika sözünün etimologiyası və yaranma tarixi ilə bağlı materialları araşdırmaq və ümimiləşdirmələr aparır. |
| **FTN 2.** Etika elminin bir çox digər elmlərlə olan əlaqəsini müəyyənləşdirib, oxşar və fərqli cəhətləri aşkarlayır. |
| **FTN 3.** Əxlaqın mahiyyətinin qavranılması üçün onun funksiyalarının təhlil edib sistemləşdirir. |
| **FTN 4.** Fərdi və ictimai əxlaqi şüurun formaları haqqında araşdırma aparmaqla, alınmış nəticələrin müqayisə edir. |
| **FTN 5.** Etikanın əsas və aparıcı kateqoriyalarının hər biri haqqında ətraflı material toplayaraq, alınmış biliklərin tətbiq edir. |
| **FTN 6.** Peşə etikasının əsas anlayışları olan peşə borcu, peşə şərəfi, peşə ləyaqəti, peşə ədaləti, peşə nəzakəti haqqında məlumatları sitemli şəkildə araşdırıb təhlil edir. |
| **FTN 7.** Estetika anlayışı və onun inkişafının əsas mərhələləri ilə bağlı biliklərdən istifadə edir. |

| |
|---|
| **“İnformasiya texnologiyaları (ixtisas üzrə)” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** İnformasiyanın xassələrini, növlərini, formasını, proseslərini fərqləndirir, informasiyanın kodlaşdırılması üsulları haqqında kompleks biliyə malik olur. |
| **FTN 2.** Müasir kompüterlərin proqram təminatını, onların strukturu və ümumi funksiyalarını öyrənir. |
| **FTN 3.** Şəbəkə texnologiyalarından istifadəni, İnternetin strukturu və İnternetin bütün resurslarından istifadə etmək imkanını nümayiş etdirir. |
| **FTN 4.** Müasir kompüterlərdə istifadə olunan əməliyyat sistemlərini, onların xüsusiyyətlərini fərqləndirir və müasir Əməliyyat sistemlərindən istifadəni əsaslandırır. |
| **FTN 5.** MS Office paketinə daxil olan proqramlardan istifadə edərək mətn sənədlərinin redaktəsi, təqdimatların hazırlanması, elektron cədvəllərin yaradılması, VBİS-lərin imkanları və elektron hökumət portallarında işləməyi mənimsəyir. |
| **“Politologiya” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Gənc nəslin əsas aparıcı dəstələrindən biri olan tələbələrdə siyasət, siyasi münasibətlər və mənafelər haqqında aydın təsəvvür yaradır. |
| **FTN 2.** Cəmiyyətin siyasi sisteminə daxil olan struktur elementləri haqqında məlumatlanmaq, siyasi partiyaların və ictimai-kütləvi təşkilatların işində praktiki surətdə iştirak etmək imkanı əldə edir. |
| **FTN 3.** Siyasi biliklərə, inamlara siyasi mədəniyyət elementlərinə yiyələnir. |
| **FTN 4.** Politologiya ilə bağlı mənbələrlə işləyir; politologiyaya aid məlumatları təhlil edir və müstəqil nəticə çıxarır; politologiya ilə bağlı şəxsi mövqe formalaşdırmaqla onu müdafiə etməyi bacarır. |
| **FTN 5.** Humanitar, sosial-siyasi biliklərin əsasları ilə tanış olmaq və onları tədbiq etməyi; müasir dövrdə insan və cəmiyyətdə baş verən siyasi dəyişiklikləri dərk edərək onlara münasibət bildirir. |
| **FTN 6.** Şəxsiyyətin yaranması, inkişaf dialektikasını, azadlığını, məsuliyyətini müxtəlif dövrlərdə müqayisə etmək bacarığını əldə edir. |
| **FTN 7.** Siyasi problemlər ətrafında müzakirə aparmaq bacarığına, müstəqil nəticələr çıxarmaq, rəy və məsləhətlər vermək vərdişlərinə yiyələnir |
| **“Dilçiliyə giriş” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Dilin əsas struktur vahidlərini, səviyyələrini və dildə səviyyələrarası qarşılıqlı münasibətləri müəyyən edir və şərh edir. |
| **FTN 2.** Dilin əsas və periferik vahidlərinin xüsusiyyətlərini təsvir və şərh edir. |
| **FTN 3.** Dillərin müxtəlif təsnifini (genealoji, morfoloji, areal, struktur, sosioloji, funksional) apara bilir. |
| **FTN 4.** Dil materialını dilin forma və aspektləri, eləcə də dil vahidləri baxımından təhlil edir. |
| **FTN 5.** Dilçiliyin tarixi inkişaf yolu haqqında ümumi bilik əldə edir. |
| **FTN 6.** Elmi mövqeyini arqumentləşdirməyi bacarır. |
| **“Ədəbiyyatşünaslığa giriş” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Ədəbiyyatşünaslıq elminin mahiyyəti və vəzifələri ətrafında müzakirə aparır. |
| **FTN 2.** Milli estetika və onun komponentlərini təyin edir, nəzəri və praktik ədəbiyyatşünaslığı fərqləndirir. |
| **FTN 3.** Bədii yaradıcılıqda estetik idealın obrazlı ifadəsini müyyənləşdirir, Azərbaycanda və dünyada ədəbi-nəzəri fikrin təşəkkül mərhələlərini müəyyənəşdirir. |
| **FTN 4.** Müxtəlif bədii materiallar üzərində ədəbi-nəzəri təhlillər aparır, məntiqi mühakimələr yürüdür, nəticə çıxarır və ölçülər apararaq onları sınaqdan keçirir; |
| **FTN 5.** Çağdaş ədəbi prosesə müstəqil şəkildə qoşulur, modernist estetikaların səciyyəsini qarşılaşdırır. |
| **FTN 6.** Bədii sistemlər, ədəbi cərəyanlar və yaradıcılıq metodları arasında sistemli əlaqəni fərqləndirir. |
| **FTN 7.** Ortaq Şərq şeiri qanunlarını müasir ifadə və təsvir vasitələri ilə müqayisə edir və onları tarixi poetikanın tələbləri əsasında klassik və çağdaş bədii nümunələrə tətbiq edir. |
| **“Şifahi xalq ədəbiyyatı – Azərbaycan” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** İxtisas ölkəsinin folklor nümunələrini - xalq nəğmələrini, nağılları, əfsanələri, dastanları və bu haqda yazılmış elmi-nəzəri ədəbiyyatı təhlil edir. |
| **FTN 2.** Ixtisas ölkəsinin şifahi xalq ədəbiyyatına xas yazı tarixi ilə geniş bilik əldə edir, müxtəlif janrlarda yazıya alınmış folklor nümunələrinin dil və üslub xüsusiyyətlərini mənimsəyir. |
| **FTN 3.** İxtisas ölkəsinin şifahi xalq ədəbiyyatına aid nümunələri mütaliə edib, onların janrlarını və bədii xüsusiyyətlərini müəyyənləşdirir. |
| **FTN 4.** İxtisas ölkəsinin ədəbi prosesinin ilkin inkişaf mərhələsinin ümumi qanunauyğunluqlarını öyrənir və maddi-mədəniyyət abidələrinin yarandığı tarixi şəraiti dərk edir. |

| |
|---|
| **FTN 5.** İxtisas ölkəsinin şifahi xalq ədəbiyyatı tarixinin inkişaf istiqamətləri ilə qədim dövr Azərbaycan şifahi xalq ədəbiyyatının inkişaf yolunu fərqləndirə bilir. |
| **FTN 6.** Şifahi xalq ədəbiyyatının müasir ədəbiyyatın formalaşmasındakı rolunu izah etmək kimi keyfiyyət və bacarıqlara yiyələnir. |
| **"Şifahi xalq ədəbiyyatı" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Azərbaycan folklorunun genezisi, təşəkkülü və inkişafı ilə bağlı təsəvvürləri müzakirə edir. |
| **FTN 2.** Türk xalq bədii düşüncəsi ilə dünya xalqlarının dünyagörüşü arasında paralellər aparır. |
| **FTN 3.** Folklor mətnləri əsasında milli yaddaş məsələlərini dəyərləndiririr. |
| **FTN 4.** Folklor mətnlərinin semantik-struktur səviyyələrini çağdaş düşüncələrlə müqayisə edir. |
| **FTN 5.** Müxtəlif bədii materiallar üzərində ədəbi-nəzəri təhlillər aparır, məntiqi mühakimələr yürüdür, nəticə çıxarır və ölçülər apararaq onları sınaqdan keçirir. |
| **FTN 6.** Müxtəlif janrlarda yazıya alınmış folklor nümunələrinin dil və üslub xüsusiyyətlərini qarşılaşdırır. |
| **FTN 7.** Folklor və yazılı ədəbiyyat arasındakı əlaqəni müəyyən edir. |
| **FTN 8.** Kainatın və insanın yaranması haqqında ilkin təsəvvürləri, mifik baxışlar sistemini mənimsəməyərək fərqləndirir. |
| **"Dil tarixi" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Tələbələr şumer dili və türk dillərini müqayisə edir və nəticələr çıxarır. |
| **FTN 2.** Tələbələr protoazərbaycan dilinin inkişaf dövrlərinin sərhədlərini müəyyənləşdirir. |
| **FTN 3.** Tələbələr Azərbaycan dilinin əmələ gəlmə dövründə baş verən prosesləri şərh edirlər. |
| **FTN 4.** Tələbələr şifahi ədəbi dilin təşəkkülü dövründə siyasi, iqtisadi və mədəni vəziyyəti şərh edirlər. |
| **FTN 5.** Tələbələr yazılı ədəbi dilin təşəkkülünü şərtləndirən amilləri müəyyənləşdirirlər. |
| **"Məntiq və tənqidi təfəkkür" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Problemi aydın və müfəssəl şəkildə izah edir. |
| **FTN 2.** Problemlərin təhlili prosesində məlumatları və faktları səmərəli şəkildə seçir və şərh edir. |
| **FTN 3.** Problem haqqında mövqe ifadə edərkən problemin kontekstini müəyyən edir və təhlil edir; mövcud və ya mümkün fərziyyələri və nöqteyi-nəzərləri şərh edir. |
| **FTN 4.** Problemin mürəkkəbliyini və ya problemə müxtəlif yanaşmaları nəzərə alan mülahizələr, tezislər formalaşdırır. |
| **FTN 5.** Arqumentativ diskursun təhlili və dəyərləndirilməsi üçün vacib olan əsas anlayışları izah və tətbiq edir. |
| **FTN 6.** Mürəkkəb məsələlərin bir neçə mümkün həlli yolunu müəyyən edir, alternativ mülahizələr irəli sürmə bacarığına yiyələnir. |
| **FTN 7.** Əsaslandırılmış nəticələr çıxarmaq məqsədi ilə məlumatları və faktları sintez etmə bacarığına yiyələnir. |
| **FTN 8.** Arqumentlərin məntiqiliyini və etibarlılığını, eləcə də müvafiq məlumatın və faktların verilən arqumentlə bağlılıq və arqumentə aidiyyət dərəcəsini dəyərləndirir. |
| **FTN 9.** Ümumi məntiqi və ritorik səfsətələri müəyyən edir. |
| **FTN 10.** Anlayış, hökm və əqli nəticə arasındakı fərqi izah edir. |
| **FTN 11.** Tezis, mülahizə , mühakimə və arqumentləri müəyyən edir. |
| **FTN 12.** Eyniyyət, ziddiyyətsizlik , üçüncünü istisna və kafi əsas qanunu kimi formal məntiq qanunlarını bilir, bunları əqli nəticə və sübut prosesində tətbiq edə bilir. |
| **FTN 13.** Taftalogiya, ziddiyyət, səfsətə və paradoksları müəyyən edə bilir. |
| **FTN 14.** Bu bacarıqları akademik, analitik və yaradıcı şifahi və yazı vərdişlərinin inkişafında istifadə edir. |
| **"Öyrənilən əsas dil" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Dilin orfoepik və orfoqrafik sistemləri arasındakı əlaqəni müəyyən edə bilir. |
| **FTN 2.** Dilin qrammatik quruluşunu mənimsəyir, qrammatik səhvləri müəyyən edir və qrammatik cəhətdən qüsursuz mətn parçaları formalaşdıra bilir. Dilin struktur vahidlərinin kommunikativ funksiyalarına yiyələnir və onlardan düzgün istifadə edir. |
| **FTN 3.** Ünsiyyətin qurulması prosesində dilin zəngin resurslarından maksimum yararlanacaq səviyyədə dilin leksik korpusuna yiyələnir; şifahi və yazılı nitqdə leksik- semantik kateqoriyalardan, ümumişlək olmayan lüğət elementlərindən frazeoloji vahidlərdən, terminlərdən, spesifik ifadələrdən düzgün istifadə etməyi bacarır; sinonimlərin konnotativ xüsusiyyətlərini, çoxmənalı sözlərin işlədilmə məqamlarını ayırd edə bilir. |
| **FTN 4.** Nitqi dinləyici üçün anlaşıqlı, vacib məqamları nəzərə çarpdıracaq qədər ekspressiv və məntiqli şəkildə qurur. |

| |
|---|
| **FTN 5.** Effektiv eşidib-anlama vərdişlərini inkişaf etdirir. |
| **FTN 6.** Dinlədiyi mətnlərin linqvistik təhlilini apara bilir; əsas fikirləri, detalları şərh edir; spesifik ifadələrin, idiomların, terminlərin mənasını anlayır; intonasiya və digər prosodik vahidləri fərqləndirir və bunların əsasında danışanın mövzuya emosional-ekspressiv münasibətini izah edir. |
| **FTN 7.** Müxtəlif konkret və mücərrəd mövzulu yazılı mətnləri anlayır, mətndə yer alan əsas fikirləri şərh edir, mətnin əsas məqamlarını parafraz edir və ümumiləşdirir. |
| **FTN 8.** Frazeoloji vahidlərin semantik-üslubi cəhətlərini və struktur xüsusiyyətlərini ayırd edə bilir. |
| **FTN 9.** Öyrənilən dilin şöbələrini xarakterizə edə bilir; əsas ünsiyyət vahidlərinin normativ, kommunikativ və etik aspektlərdə tətbiqini bacarır; sərbəst fikir söyləyir, tutarlı və zəngin nitq nümayiş etdirir. |
| **FTN 10.** Mətnin təşkilində iştirak edən struktur elementlərinin və vasitələrin xüsusiyyətlərini və tətbiqini mənimsəyir. |
| **“Ölkə ədəbiyyatı tarixi” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Şərq ədəbiyyatının ən böyük şəxsiyyətlərindən olan Nizami Gəncəvi, Məhəmməd Füzuli kimi ustadların ədəbi-bədii irsini müasir ədəbiyyatşünaslıq elminin nailiyyətləri səviyyəsində araşdırmağa cəlb etməyi bacarır. |
| **FTN 2.** XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatının Saib Təbrizi, Əmani, Məsihi kimi sənətkarlarının yaradıcılığında ənənə və novatorluq məsələlərini təhlil edir. |
| **FTN 3.** Tədris prosesində çoxəsrlik Azərbaycan ədəbiyyatı tarixinin məzmun və formaca ən zəngin dövrlərindən olan XIX əsr mərhələsini qloballaşma və mədəni inteqrasiya dövrünün tələbləri baxımından araşdırır. |
| **FTN 4.** XIX əsrin reallığında Şərqlə Qərbin harmoniyasının söz sənətkarlarının yaradıcılığı müstəvisində araşdırılmasına dair biliklərə yiyələnir. |
| **FTN 5.** XX əsrin əvvəllərində yaranan ədəbiyyatının məzmun və mahiyyətini, ədəbiyyat tarixindəki yerini müəyyənləşdirmək və izah etmək bacarığına nail olur. |
| **FTN 6.** XX əsrin əvvəllərində yaranan mətbuat orqanları, onların hər birinin xalqımıın savdlanmasında, dünyagörüşünün yaranmasında və formlaşmasındakı rolları haqqaında dərin və hərtərəfli biliyə sahib olur. |
| **FTN 7.** XX əsrin əvvəllərindən 60-cı illərə qədər ədəbiyyatımızın keçdiyi inkişaf yolunu, bu dövrdə yazıb-yaradan yazıçı və şairləri haqqında təsəvvürə malik olur. |
| **FTN 8.** Poeziyanın bu mərhələsində (1960-90-cı illər) mövzu və problematika əsaslı şəkildə dəyişir, poeziyanın dili, semantik quruluşu dəyişməyə başlayır. |
| **FTN 9.** 1960-cı illər nəsrinin janr, üslub, mövzu və problematikası, mənəvi-əxlaqi problemlərin lirik-psixoloji üslubda təsviri, insanın daxili və mənəvi aləminin təsviri verilir. |
| **FTN 10.** 1990-cı illərdən başlayaraq ədəbiyyatımızın keçdiyi mürəkkəb tarixi dövr, bu dövrdə yazıb-yaradan sənətkarların ideya axtarışları, müxtəlif yaradıcılıq üsulları, janr və üslub xüsusiyyətləri haqqında biliklərə sahib olur. |
| **FTN 11.** 1990-cı ildə Azərbaycanın müstəqilliyini əldə etməsi ilə ictimai-siyasi sferada baş verən dəyişikliklərin, xüsusilə Qarabağ müharibəsinin başlanmasının ədəbiyyatımıza təsiri ilə yeni mövzu və problematikaların, ideyaların yaranması ilə bağlı dəyərləndirmələr aparır. |
| **“Dünya ədəbiyyatı” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Qədim Şərq və Qərb xalqlarının mifləri ilə tanış olur, onları dövrün tarixi-mədəni konteksti müstəvisində öyrənir. |
| **FTN 2.** Antik ədəbiyyatın ümümbəşəri və tarixi əhəmiyyəti, nümayəndələri barəsində müfəssəl məlumatlara yiyələnir, antik lirika və dramaturgiya haqqında ətrafları biliklərə sahib olur. |
| **FTN 3.** Orta əsrlər qəhrəmanlıq eposları, cəngavər-kurtuaz və şəhər ədəbiyyatının poeziya və nəsr nümunələri haqda biliklərə yiyələnir, trubadur və truver poeziyasını mənimsəyir, cəngavər romanı haqqında ətrafları biliklərə sahib olur. |
| **FTN 4.** Orta əsrlər Şərq və Qərb ədəbiyyatının aparıcı ictimai-siyasi nümayəndələrinin, ədib və filosoflarının həyat və yaradıcılıqları haqqında məlumatı mənimsəyir. |
| **FTN 5.** İntibah, Klassisizm, Maarifçilik, Romantizm və Realizm ədəbiyyatının tanınmış yazıçı, şair və dramaturqları barəsində müfəssəl məlumata, aparıcı ədəbi cərəyanların təkamülü haqqında ətraflı biliklərə sahib olur; bu cərəyanları qarşılıqlı şəkildə təhlil edə bilir. |
| **FTN 6.** Modernist ədəbiyyatın fəlsəfi-estetik və nəzəri konsepsiyalarını ədəbi nümunələr əsasında mənimsəyir. |

| |
|---|
| **FTN 7.** Posmodernist ədəbiyyatın ədəbi-estetik əsaslarını və müasir müəlliflərin bədii mətnlərində inikas xüsusiyyətlərini araşdırmağı bacarır. |
| **FTN 8.** Müasir ədəbi prosesin əsas təmayülləri ilə (magik realizm, antiutopiya, itirilmiş nəsil, qara yumor, feminizm, elmi fantastika, mutikulturalizmə s.) tanış olur və bu təmayülləri ədəbi nümunələr əsasında səciyyələndirir. |
| **Qədim dil" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Qədim dilin səs sistemini mənimsəyir. |
| **FTN 2.** Qədim dilin morfoloji strukturunu mənimsəyir. |
| **FTN 3.** Qədrim dilin əsas sintaktik vahidlərini mənimsəyir. |
| **FTN 4.** Qədim dildə seçilmiş mətnləri oxuyub anlama səviyyəsində leksik korpusunu mənimsəyir. |
| **FTN 5.** Qədim dildə əsas frazeoloji vahidlərin mənasını anlayır. |
| **FTN 6.** Qədim dilin inkişaf etdiyi mühitin sosial, siyasi və mədəni özəllikləri haqqında məlumatlı olur. |
| **FTN 7.** Qədim dilin istifadə edildiyi ədəbi abidələr və qədim dildə əsərlər yaratmış yazıçılar haqqında bilik əldə edir və bu əsərlərdən parçaları müəllimin köməyi ilə/lüğətdən istifadə edərək oxuyub tərcümə edə (və ya şərh edə) bilir. |
| **FTN 8.** Qədim dilin yazıldığı ədəbi əsərlərdə üslub xüsusiyyətlərini təhlil edir, oxu materialına istinad edərək qədim dilin funksional üslubları haqqında fikir yürüdür. |
| **"Ölkəşünaslıq" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Dili öyrənilən xalqın tarixi və mədəniyyəti haqqında təməl bilklər əldə edir. |
| **FTN 2.** Dili öyrənilən xalqın tarixi və mədəniyyəti haqqında əldə etdikləri biliklər əsasında öyrəndiyi dildə sosio-lnqvistik, sosio-kulturoloji və mədəniyyətlərarası ünsiyyət səviyyəsində müvafiq vərdişlər əldə edir. |
| **FTN 3.** Dili öyrənilən xalqın mədəniyyətini digər mədəniyyətlərlə müqayisəli şəkildə təhlil edə bilir. |
| **FTN 4.** DilΙ öyrənilən xalqın tarixi, mədəniyyəti və dili öyrənilən xalqın yaşadığı ölkədə/ölkərədə gedən sosial proseslərlə bağlı debatlarda iştirak edə bilir. |
| **FTN 5.** Əldə etdikləri bilik və bacarıqlarla təkcə leksik fon, milli mədəniyyət və milli reallıqları deyil, həm də ünsiyyətdə olduqları digər tələbələrdə öyrənilən dilin ölkəsinə hörmət və məhəbbəti aşılamağı bacarır. |
| **FTN 6.** Dili Öyrənilən xalqın mədəniyyətindən qəbul edilmiş ünsiyyət, adət və ənənələrin Azərbaycan mədəniyyəti ilə sistemli şəkildə qarşılıqlı əlaqəsini izah edə bilir. |
| **"Psixologiya" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Psixologiyanın predmeti və metodları, psixologiyanın elmlər sistemində yeri və onun əsas sahələri, psixoloji fikrin əsas inkişaf istiqamətləri haqqında biliklər əldə edir. |
| **FTN 2.** İnsan psixikasının quruluşu, davranışın tənzimində şüurun və şüursuzluğun rolu, davranış və fəaliyyətin motivasiyası və psixi tənzimi haqqında təsəvvürə malik olur. |
| **FTN 3.** Psixologiya elminin əsas kateqoriya və anlayışları, psixi olanın idraki, emosional-iradi, motivasyon sahələri, şəxsiyyət, şəxsiyyətin inkişafı və formalaşması xüsusiyyətləri, təfəkkür, ünsiyyət və fəaliyyət, temperament, xarakter və qabiliyyətlər, təhsil və özünüinkişaf problemi haqında biliklərə malik olur. |
| **FTN 4.** Peşəkar və problemli təlim situasiyalarının təhlilini aparmağı, professional ünsiyyəti və qarşılıqlı təsiri, fərdi və birgə qərar qəbulunu, refleksiyanı təşkil etməyi bacarır. |
| **FTN 5.** İnsanların şəxsi və fərdi-psixoloji xüsusiyyətlərinin, eləcə də onların idraki və professional fəaliyyət üslubunun diaqnostikasını aparmağı bacarır. |
| **FTN 6.** Əldə edilmiş bilikləri istər təhsildə pedaqoji sahədə, sənaye və ticarət sahəsində, istərsə də hüquqazidd davranışla mübarizə və s. sahələrdə müxtəlif psixoloji xarakterli praktik problemlərin həllində və qərarların qəbul edilməsində tətbiq edir. |
| **"Ümumi dilçilik" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Daha öncə müvafiq zəruri fənn çərçivəsində əldə edilmiş biliklərə əsaslanaraq dilçilik problemlərinin anlaşılmasında, müəyyən edilməsində və təhlilində yeni səviyyə əldə edir. |
| **FTN 2.** Dilçilikdə ayrı-ayrı şöbələr üzrə mövcud əsas elmi cərəyanların konseptual çərçivəsini və bu cərəyanlara dayanan elmi metodologiyanı anlayır və onları real dil faktlarına tətbiq edərək təhlil edir. |
| **FTN 3.** Dilçilik sahəsində araşdırma aparmaq məqsədi ilə metodoloji bazanı müəyyən edir. |
| **FTN 4.** Dilçiliklə bağlı problemləri humanitar və sosial elmlər sahəsindəki problemlər və nəzəri müddəalarla əlaqələndirərək interdisiplinar çərçivədə qavrayır və təhlil edir. |

| |
|---|
| **FTN 5.** Dilçilik elminin müasir problemləri, prioretləri və gələcək perspektivləri haqqında müstəqil mülahizə irəli sürür. |
| **FTN 6.** Dilə, dil faktlarına, dildə gedən proseslərə sistemli elmi yanaşma tətbiq edir. |
| **“Ədəbiyyat nəzəriyyəsi” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Bədii ədəbiyyatın ümumi nəzəri prinsiplərini öyrənir. |
| **FTN 2.** Ədəbiyyatın təbiəti və ədəbiyyatın təyinatı haqqında biliklər əldə edir. |
| **FTN 3.** Ədəbiyyat-cəmiyyət, ədəbiyyat-fəlsəfə, ədəbiyyat-psixologiya, ədəbiyyat-bioqrafiya arasındakı münasibətləri mənimsəyir. |
| **FTN 4.** Əsərin bədii bütövlüyü haqqında nəzəri biliklərə yiyələnir, süjet və kompozisiya ilə bağlı bilikləri genişləndirir. |
| **FTN 5.** Ədəbi dilin leksik-semantik xüsusiyyətlərini mənimsəyir, obrazlı dilin ifadə vasitələri haqqında biliklərə yiyələnir, şeir vəznlərinin milli dilin xüsusiyyətləri ilə əlaqəsini aydınlaşdırır. |
| **FTN 6.** Bədii üslub və metodların tipologiyasını müəyyən edir, metodoloji prinsipləri və üslubi istiqamətləri müəyyənləşdirir. |
| **FTN 7.** Ədəbiyyatşünaslığın mifoloji, psixoloji, bioqrafik, tarixi-müqayisəli məktəbləri haqqında biliklər əldə edir. |
| **“Üslubiyyat və ritorika” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Üslubiyyata aid spesifik anlayışları və onların arasındakı fərqləri müəyyənləşdirir. |
| **FTN 2.** Müxtəlif mətnlərdə və nitqdə istifadə edilən üslubi vasitələri və onların kontekstdəki funksiyasını müəyyənləşdirir, üslubi analizin prinsiplərini təsvir və müzakirə edir. |
| **FTN 3.** Müvafiq funksional üslublarda mətnlər tərtib edə bilmək üçün uyğun stilistik vahidləri seçib tətbiq etməyi bacarır. |
| **FTN 4.** Ritorik vasitələrdən istifadə etməklə nitqin məntiqiliyini və inandırıcılığını təmin edir. |
| **FTN 5.** Gündəlik və peşəkar diskursda istifadə edilən ritorik vasitələri və xüsusiyyətləri müəyyən edə bilir. |
| **FTN 6.** Öyrənilən dilin ifadəlilik imkanlarını, üslubi kateqoriyaların nitq fəaliyyətində tətbiq metodlarını mənimsəyir, ritorik tələblərə riayət edir və mədəni nitq qabiliyyəti nümayiş etdirir. |
| **“Müasir informasiya - kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Yeni informasiya texnologiyaları və onların rolu haqqında bilikləri əldə edir. |
| **FTN 2.** Müasir informasiya- kommunikasiya texnologiyalarının növləri, təsnifatı haqqında biliklərə yiyələnir. |
| **FTN 3.** İnformasiya cəmiyyətinin konsepsiyası və xüsusiyyətləri, cəmiyyətin informasiyalaşdırılması prosesinin əsas mərhələləri haqqında biliklər qazanır. |
| **FTN 4.** Müvafiq ixtisas sahəsində müasir texnologiyalardan istifadə etmək praktikasına yiyələnir. |
| **FTN 5.** Müvafiq ixtisas sahəsində informasiya texnologiyalarının rolunu və effektivlik meyarlarını qiymətləndirir. |
| **FTN 6.** Müasir Əməiyyat Sistemlərinin iş prinsipini mənimsəyir. |
| **FTN 7.** Proqramlaşdırma bacarığına yiyələnir. |
| **FTN 8.** Veb sistemləri və texnologiyası sahəsində biliklərə yiyələnir və praktik iş təcrübəsi əldə edir. |
| **FTN 9.** Süni intellekt, ekspert sistemləri və s. haqqında biliklər əldə edir. |
| **FTN 10.** İnformasiya təhlükəsizliyi, ona nail olma yolları ilə bağlı bacarıqları formalaşır. |
| **FTN 11.** Ms Office 365 paket proqramlarını mənimsəyir və müvafiq ixtisas sahəsi üzrə tətbiq edir. |
| **FTN 12.** Veriənlər bazası haqqında biliyə yiyələnir və müvafiq ixtisas sahəsi üzrə tətbiq edir |
| **“Mülki müdafiə” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Fövqəıladə hadisələrin təsnifatı, onların tam xarakteristikası, Mülki müdafiənin yaranma tarixi, onun FH-da rolu və vəzifələrini öyrənir. Mülki müdafiə ilə bağlı normativ-hüquqi sənədləri bilir. |
| **FTN 2.** Müasir dövürdə sülh və müharibə dövürlərində Mülki müdafiənin rolunu və vəzifələrini bilir. Texnogen FH-də hadisələrin qarşısının alınması yolları, bakterioloji, kimyəvi və radiasiya şəraitində əhalinin davranış qaydalarını, mahiyyətini bilir. Karantin, observasiya şəraitində, sanitar təmizliyi, ərazinin dezinfeksiyası, kimyəvi zəhərlənmə ocaqlan an dadeqazasiya, radiasiya şəraitində isə dezaktivasiya üsullarını bilir. |
| **FTN 3.** Fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün Dövlət sisteminin rolu və vəzifələrini bilir. Hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin yaradılmasını öyrənir. |

| |
|---|
| **FTN 4.** Fövqəladəhallar zamanı əhalinin mühafizəsinin təşkilini həyata keçirir. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bilir. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilir. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini bacarır. Fövqəladə hallar zamanı əhalinin səmərəli mühafizəsinin təşkilini bacarır. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bacarır. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilir. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini həyata keçirir. |
| **FTN 5.** Mülki müdafiə kəşfiyyatının təşkili və aparılması qaydalarını bilir. Radiasiya və kimyəvi, kəşfiyyat cihazlarını işlətməyi bacarır. Mülki müdafə üzrə idaretmə, mülki müdafiə qərargahları və onların əsas vəzifələrini bilir. |
| **FTN 6.** FH-in nəticələrinin aradan qaldırılması yollarını bilir. Qəza- xilasetmə və digəri təxirəsalınmaz işlərin dağıntı ocaqlarında təşkil edir və aparılmasını həyata keçirir. Əhalinin mülki müdafiə sahəsində hazırlanmasının prinsiplərini öyrənir. Fövqəladə hadisələr zamanı dağıntı ərazisində ilk tibbi yardım aparmağı bacarır. |
| **“Dil və cəmiyyət” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** “Dil və cəmiyyət” fənnində toplumdaxili ünsiyyətin formatını müəyyənləşdirən, kommunikasiya prosesini rəvanlaşdıran və ya əksinə manelərə yol açan, kommunikativ geştaltlar qəlibində formalaşan nitq davranışı stereotipləri, patternləri və s. bilir. |
| **FTN 2.** “Dil və cəmiyyət” fənni çərçivəsində həmçinin ünsiyyət prosesinin verbal, qeyri-verbal və transverbal reallaşma şəklinin nisbətini öyrənir, eləcə də fərqli diskurslarda, fərqli mədəniyyətlərin təmasında bu nisbətin təzahür xüsusiyyətlərini izləməyi bacarır. |
| **FTN 3.** Eləcə də kross-kultural ünsiyyətdə semantik adekvatlığa mane olan lakuna hallarını, sosial qradasiya fərqliliyi zəminində ortaya çıxan sosial zümrə nitq patternlərini də öyrənir. |
| **FTN 4.** Habelə individual psixtip özəlliklərin ünsiyyətin müvəffəqiyyətliliyinə və ya kommunikasiya uğursuzluğuna yol açması məqamını təhlil edir. |
| **FTN 5.** O cümlədən gender fərqliliklərinin ünsiyyət modellərinə təsirini izah edir. |
| **“Dilçiliyin tarixi” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Bütövlükdə dilçiliyin tarixi, müasir vəziyyəti və perspektivləri və onun konkret peşə sahəsi üzrə problemlərini müəyyənləşdirir, dərki və təhlilində yeni səviyyə əldə edir. |
| **FTN 2.** Dilçiliyin tarixi üzrə fundamental bilikləri mənimsəyir, terminoloji aparata yiyələnir, linqvistik təfəkkürə və əsas tədqiqat metod və üsullarını mənimsəyir və qazanılmış bilikləri real dil faktları və materiallarına tətbiq edərək təhlil edir. |
| **FTN 3.** Dilçilik tarixində aparıcı cərəyanlar, məktəblər və ayrı-ayrı alimlərin əsas müddəalarını təhlil edir. |
| **FTN 4.** Linqvistik problemlərin həllinə elmi yanaşma və nəzəriyyələr çərçivədə dərk və təhlil edir. |
| **FTN 5.** Dilçilik elminin yeni paradiqmləri, onların inkişaf dinamikası və gələcək perspektivləri haqqında müstəqil fikir və mülahizələr irəli sürür. |
| **FTN 6.** Müasir elmi-nəzəri mənbələrdə aparıcı ideya və fikirlərə istinad edərək dilə, dilin mahiyyətinə, sistem və struktur xüsusiyyətlərinə, dil faktlarına, dildə gedən dildaxili proseslərə sistemli yanaşma tətbiq edə bilir, mətnin filoloji və təhlilini və şərhini verə bilir. |
| **“Multikulturalizmə giriş” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Multikulturalizmin mahiyyəti, onun yaranmasının səbəbləri, əhəmiyyəti haqqında əldə etdiyi biliklərdən istifadə edir. |
| **FTN 2.** Müasir ictimai-fəlsəfi fikir tarixində olan tolerantlıq, multikulturalizm ideyaları ilə, eləcə də mültikulturalizmin nəzəri-ideoloji əsasları ilə bağlı biliklərdən nəticə çıxarır. |
| **FTN 3.** Dinin mahiyyəti, onun meydana gəlməsi, müasir dünyada dinin yeri və roluna dair nəzəriyyələrdən ümumiləşdirmələr aparır. |
| **FTN 4.** Buddizm, Xristianlıq, İslam, Zərdüştilik, Yəhudilik, Konfutsiçilik, Daosizm, Şintoizm, Hinduizm, Caynizm, Siqhizm kimi dinlərdən, qədim türk inancları haqqında ətraflı məlumat toplayaraq onları müqayisəli şəkildə təhlil edir. |
| **FTN 5.** Dini radikalizm və onunla mübarizə yollarını araşdırır. |
| **FTN 6.** Etnik-mədəni müxtəlifliyin qorunması və multikulturalizm siyasətinin səmərəliliyinin ölçülməsinin indikatorları ilə işləyir. |
| **FTN 7.** Bir neçə Qərb ölkəsinin etnik-mədəni müxtəlifliyin tənzimlənməsi sahəsində apardığı təcrübəyə yiyələnmək və tətbiq edir. |

| |
|---|
| **FTN 8.** Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən multikulturalizm siyasətinin əsas istiqamətlərini, o cümlədən multikulturalizmin Azərbaycan modelinin mahiyyətini, xüsusiyyətlərini və nailiyyətlərini dərk edərək gələcək fəaliyyətlərində tətbiq edir. |
| **“Əski Azərbaycan yazısı” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Əski Azərbaycan yazısı qrafik işarələrinin, kalliqrafik xətt növlərinin funksiyasını və hər qrafemin düzgün yazılış qaydasının müfəssəl şəkildə öyrənir; düzgün yazı qaydalarına yiyələnir. |
| **FTN 2.** Tələbələr klassik ədəbiyyatımızı, XIX əsrin axırları, XX əsrin əvvəllərində ana dilimizdə nəşr olunan materialları oxuya və tədqiqat apara bilir. |
| **FTN 3.** Müxtəlif dövrlərin təmsilçisi olan abidələrin yazısına əsasən bəzi qrafik işarələrin qeydə alınan variantlarını, onların səs göstəricilərinin sinkretik xarakterini, diferensiyaya uğrayaraq konkretləşməsi, sabitləşməsi prosesini mənimsəyir. |
| **FTN 4.** Azərbaycan-ərəb əlifbasının bütün hərflərinin yazılış və tələffüz xüsusiyyətləri öyrənilməklə yazı ənənəsinin ümumi və spesifik məsələləri ilə tanış olur. |
| **FTN 5.** Bu əlifba ilə Azərbaycanın zəngin tarixi-ədəbi irsi – “Kitabi Dədə Qorqud”, “Dastani-Əhməd Hərami”-dən “Əkinçi”, “Füyuzat” jurnalına qədər müxtəlif ədəbiyyat nümunələri, tarixi, rəsmi və qeyri-rəsmi sənədləri oxumaq qabiliyyətinə yiyələnməklə ölkəmizin tarixinə, ədəbiyyatına, mədəniyyətinə bələd olur. |
| **“Fars dili” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Fars dili əlifbasını öyrənir. |
| **FTN 2.** Fars dilinin qrammatikasını mənimsəyəyir. |
| **FTN 3.** Fars dilində mətn,qəzet,jurnal materiallarını tərcümə edir |
| **FTN 4.** Fars dilində danışmağı öyrənir |
| **FTN 5.** Dərs müddətində verilən tapşırıqları yerinə yetirir |
| **“Azərbaycan folklorşünaslığı” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Folklorumuzun yaranmağa başladığı dövrdən bu günə qədər keçdiyi inkişaf yolunu, bu dövrlər ərzində fəaliyyətə başlayan ziyalıların gördüyü işlər barədə tələbələrdə müəyyən təsəvvür formalaşdırır. |
| **FTN 2.** Poetik mətnlərinin tədqiqi ilə yanaşı, müxtəlif dövrlərdə tədqiqat aparmış alimlərin elmi irsinin, fəaliyyət sahələrinin, nəzəri görüşlərinin, toplama, tərtib və nəşr təcrübəsinin sistemləşdirilməsi bacarığına yiyələnmələri haqqında tələbələrə ətraflı məlumat verir. |
| **FTN 3.** Müstəqil elm kimi formalaşmış folklorşünaslığın keçdiyi yolun hərtərəfli öyrənilməsini təmin edir. |
| **FTN 4.** Tədrisin problemlərinin həllini dövlətin təhsil siyasətinə uyğunlaşdırır. |
| **FTN 5.** Folklorun yaranma və inkişaf tarixinin öyrənilməsi, bu sahədə fəaliyyət göstərən ziyalıların rolunun dərk edilməsi tələbələrdə milli dəyərlərə hörmət və mədəni irsin qorunmasına maraq oyadır. |
| **FTN 6.** Folklorun öyrənilməsi tələbələrdə analitik düşüncə, müqayisə qabiliyyəti və tənqidi yanaşma kimi vacib bacarıqları inkişaf etdirir. |
| **“Müasir Azərbaycan poeziyasında folklor üslubu” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** “Müasir Azərbaycan poeziyasında folklor üslubu” fənninin məzmununu və əhəmiyyətini dərk edir, poeziyada ənənə ilə novatorluq məsələsinə ciddi nüfuz edir və onu bədii mətnlər üzərində təyin edir. |
| **FTN 2.** Çağdaş poeziyada yeni meyil və tendensiyaları dəyərləndirməyi və fərqləndirməyi bacarır. |
| **FTN 3.** Müasir Azərbaycan poeziyasında epos motivlərini fərqləndirir. |
| **FTN 4.** Müasir Azərbaycan poemalarında folklor elementlərini təyin edir. |
| **FTN 5.** Müasir poetik nümunələrdə satirik poeziya ənənələrini və xalq gülüşü motivlərini qarşılaşdırır. |
| **FTN 6.** Xalq yaradıcılığının forma və janrlarından istifadə üsullarını müasir sənət estetikası ilə uyğunlaşdırır. |
| **FTN 7.** Müasir poeziyadakı qafiyə və vəzn məsələlərindən təcrübədə istifadə edir. |
| **“Mifologiya” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Mifologiya elmi haqqında ümumi məlumatlar əldə edir. |
| **FTN 2.** Dünya xalqlarının mifoloji dünyagörüşü ilə tanış olaraq onlardan praktik olaraq sitat gətirməyi bacarır. |
| **FTN 3.** Türk mifoloji dünyagörüşü ilə dünya xalqları mifologiyası arasında paralellər aparmağı öyrənir. |
| **FTN 4.** Müxtəlif folklor janrlarının meydana gəlməsində və formalaşmasında miflərin rolunu müəyyən edir. |

| |
|---|
| **FTN 5.** Kainatın və insanın yaranması haqqında ilkin təsəvvürləri, mifik baxışlar sistemini mənimsəməyi bacarır. |
| **FTN 6.** Miflərin folklorun müxtəlif janrlarının meydana gəlməsində və formalaşmasında rolunu müəyyən edir. |
| **"XX əsr Azərbaycan ədəbiyyatında ədəbi-estetik cərəyanlar" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** XX əsr Azərbaycan ədəbiyyatında mövcud cərəyanların yaranmasına təsir edən ictimai-siyasi və mədəni amilləri müəyyən edir. |
| **FTN 2.** Azərbaycan ədəbiyyatında mövcud cərəyanların dünya ədəbiyyatındakı cərəyanlarla əlaqə dərəcəsini müqayisə edir. |
| **FTN 3.** Müxtəlif ədəbi-estetik cərəyanların təmsil olunduğu nümunələri təhlil edir. |
| **FTN 4.** Fərqli cərəyanların təsiri altında yazılmış mətnlərə tənqidi yanaşır. |
| **FTN 5.** Müasir dövrdə ədəbi cərəyanların inkişaf prespektivlərini müzakirə edir, Azərbaycan ədəbiyyatının gələcək inkişafı üçün cərəyanların əhəmiyyətini izah edir. |
| **FTN 6.** XX əsr Azərbaycan ədəbiyyatında mövcud ədəbi estetik cərəyanlarla bağlı araşdırmalara aparır, məqalələr hazırlayır. |
| **"Azərbaycan ədəbiyyatında modernizm" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Aparıcı ədəbi cərəyanların təkamülü haqqında ətraflı biliklərə sahib olur; bu cərəyanları qarşılıqlı şəkildə təhlil edə bilir. |
| **FTN 2.** Modernist ədəbiyyatın fəlsəfi-estetik və nəzəri konsepsiyalarını ədəbi nümunələr əsasında mənimsəyir. |
| **FTN 3.** Bu cərəyanın ədəbiyyatımızda formalaşmasında rolu olan ədəbi simaların yaradıcılığı barəsində dolğun biliklərə yiyələnir, onların fəlsəfi-estetik görüşlərini təhlil edir. |
| **FTN 4.** Dünya və Azərbaycan ədəbiyyatı nümunələrini müqayisəli şəkildə təhlil edə bilir. |
| **FTN 5.** Mənsub olduğu xalqın zəngin ədəbi-mədəni, əxlaqi-mənəvi görüşləri, yaşam şərtləri, keçdiyi ədəbi-tarixi proseslər barədə biliklər milli düşüncə və vətənpərvərlik duyğularının formalaşmasına şərait yaradır. |
| **FTN 6.** Əzbərçilikdən uzaqlaşır, sərbəst fikir yürütmək bacarığına yiyələnir. |
| **"Azərbaycan ədəbiyyatında postmodernizm" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Postmodernist əsərləri təhlil etmək və qiymətləndirmək bacarığına yiyələnir. |
| **FTN 2.** İrəli sürülən fikir və mülahizələri elmi-nəzəri baxımdan əsaslandırır. |
| **FTN 3.** Çağdaş ədəbi prosesi hərtərəfli öyrənmək və təhlil etmək bacarığı əldə edir. |
| **FTN 4.** Bədii əsərlərin üslubi xüsusiyyətləri, əsas ideya və mövzuları haqqında nəzəri-təcrübi biliklər qazanır. |
| **FTN 5.** Azərbaycan ədəbiyyatının aparıcı ədəbi simalarının həyat və yaradıcılığı barəsində dolğun biliklərə yiyələnmək, əsərləri ilə tanış olmaq, onların fəlsəfi və estetik görüşlərini təhlil etmək səriştəsinə yiyələnir. |
| **FTN 6.** Təbliğ edilən ictimai-estetik idealı müstəqil şəkildə izah edir. |
| **FTN 7.** Cərəyanlar arasındakı oxşar və fərqli cəhətləri öyrənir, bədii əsərlərdə bu cəhətləri üzə çıxarmağı bacarır. |
| **FTN 8.** Bədii-estetik zövqü inkişaf edir. |
| **FTN 9.** Bədii nəsr nümunələrini dünya ədəbiyyatının mütərəqqi ənənələri kontekstində izah edir. |
| **"Azərbaycan uşaq ədəbiyyatı" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Uşaq ədəbiyyatı Azərbaycan ədəbiyyatının əsas tərkib hissəsi, onun mühüm təmayüllərini öyrənir. |
| **FTN 2.** Azərbaycan uşaq ədəbiyyatının spesifikası, yaş xüsusiyyətləri, uşaq psixologiyası, məqsəd və vəzifələrini öyrədir. |
| **FTN 3.** Şifahi xalq ədəbiyyatından başlayaraq müxtəlif dövrlər haqqında yığcam icmal, klassik ədəbiyyatımızda mövcud olan uşaq oxusu nümunələrini təhlil edir. |
| **FTN 4.** 1970-1990-cı illər Azərbaycan uşaq nəsrində folklor motivlərinə və mətnlərinə müraciət keyfiyyət baxımından nağıl, povest, dastan və hekayələri daha orijinal və fərqli formatda balaca oxuculara təqdim edir. |
| **FTN 5.** Bədii ədəbiyyatın ayrılmaz tərkib hissəsi olan uşaq ədəbiyyatından tələb olunan əsas yaradıcılıq xüsusiyyətlərini (ideyalılıq, xəlqilik,realizm, beynəlmiləlçilik) qiymətləndirir. |
| **"Azərbaycan və dünya xalqlarının nağılları" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Ədəbiyyatın etnomədəni sistemin ən möhtəşəm qaynağı olması ilə bağlı sistemli və təfərrüatlı bilgini ümumiləşdirir. |
| **FTN 2.** İbtidai düşüncənin, ilkin təsəvvürlərin toplumu olan sənət və mədəniyyət kodlarını, ümumi |

| |
|---|
| məzmun qatları ilə bağlı amilləri təsnif edir. |
| **FTN 3.** Mifdən nağıla gəlişin dinamikasının və nağıl təsəvvüründə etnik sistemin mükəmməllik konseptinin nələrlə səciyyələnməsini dəyərləndirir. |
| **FTN 4.** Növ və janr şəbəkəsində tarixi prosesin axarını, çeşidlilik mənzərəsini, kanonik sistemin mükəmməlləşmə prosesini qiymətləndirir. |
| **FTN 5.** Dünya və Azərbaycan nağılları arasında olan oxşarlıq və fərqləri tapır, təhlil edir. |
| **FTN 6.** Çağdaş dünyada özünüdərkin, xalqların taleyində mənəvi dəyərlərin, mənsubluğun, etnik sistemin rolunun aparıcılığını aydınlaşdırır. |
| **“Kitabi-Dədə Qorqud” və dünya eposu” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Tədris prosesində eposların yaranma tarixini və inkişaf yolunu müəyyənləşdirir, eposları təhlil edərkən müqayisə predmetlərindən istifadə etməyi öyrənir. |
| **FTN 2.** Bədii nümunələr əsasında milli kimlik və milli yaddaş məsələləri dəyərləndirilir. |
| **FTN 3.** Eposların məzmununa uyğun şəkildə təhlil edir, yazı və oxu texnikasına yiyələnir. |
| **FTN 4.** Eposların məzmununa uyğun şəkildə təhlil edir, yazı və oxu texnikasına yiyələnir, eposların təhlili prosesinə yaradıcı yanaşır. |
| **FTN 5.** Eposların öyrənilməsi və müqayisəsi zamanı tarixi qaynaqlardan düzgün və yaradıcı istifadə etmək imkanlarına yiyələnir. |
| **FTN 6.** Təhlillər zamanı müqayisəli-tarixi və mifopoetik metodlardan istifadə edir, eposların forma xüsusiyyətlərini müəyyənləşdirir. |
| **“Azərbaycan dramaturgiyası” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Milli dramaturgiyanın inkişaf xüsusiyyətləri, özünəməxsus cəhətləri haqqında ətraflı biliyə yiyələnir. |
| **FTN 2.** Görkəmli dramaturqların dramaturji fəaliyyətini mənimsəyir. |
| **FTN 3.** Dramaturji əsərlər üzərində sərbəst təhlil aparma bacarığına yiyələnir. |
| **FTN 4.** Şifahi nitqini inkişaf etdirir. |
| **FTN 5.** Yeni üslub, cərəyan və janrlarda yazılan əsərlərdə ifadə olunan əsas ideyanı əsaslandıraraq şərh edir. |
| **FTN 6.** Əsərlərin müzakirəsi zamanı tolerantlıq, obyektivlik, elmilik və ümumi rəyə gələ bilmək bacarıqlarını nümayiş etdirir. |
| **FTN 7.** Müasir ədəbi prosesin əsas təmayülləri ilə tanış olur və bunları ədəbi nümunələr əsasında səciyyələndirir. |
| **“Ədəbi tənqid” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** “Ədəbi tənqid” fənninin öyrənilməsinin nəticəsi olaraq ədəbiyyatımızın keçdiyi inkişaf mərhələlərinin bütün mürəkkəbliyi, ziddiyyətləri, inkişaf spefikası, sosioloji və estetik təmayülləri haqqında aydın təsəvvür yaradır. |
| **FTN 2.** Çağdaş ədəbi prosesə müstəqil şəkildə qoşulur. |
| **FTN 3.** Bədii nümunələri hərtərəfli şərh və izah edərək bədii-estetik zövq formalaşması, keçilən mövzulara tənqidi yanaşaraq təhlil edir. |
| **FTN 4.** Əzbərçilikdən uzaqlaşıb müstəqil mühakimə yürütmək bacarığını dəyərləndirir. |
| **FTN 5.** İnsanın hiss və duyğularını, düşüncə tərzini, mübarizə əzmini əks etdirən ədəbiyyat vasitəsilə tələbələrdə etik-mənəvi dəyərləri, milli-tarixi keçmişə hörmət, vətənpərvərlik duyğularını aşılayır. |
| **FTN 6.** Ədəbi tənqid tarixinin ümumi nəzəri məsələləri yığcam şəkildə nəzərdən keçirilir, onun metodları, istiqamətləri və janrları, ədəbi prosesdə rolu səciyyələndirilir. |
| **FTN 7.** Ədəbi tənqid mövcud bədii əsərləri qapalı, məhdud çevrədə deyil, mənsub olduğu milli ədəbiyyatın nəzəri-estetik dəyərləri və təcrübəsi fonunda, habelə dünya ədəbiyyatı və mədəniyyətinin qazandığı uğur və nailiyyətlər işığında şərh və təhlil edir. |
| **“Azərbaycan ədəbi-estetik fikrinin inkişaf tarixi” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Azərbaycan ədəbi-estetik fikrinin inkişaf mərhələlərini və əsas xüsusiyyətlərini izah edir. |
| **FTN 2.** Fərqli dövrlərdə mövcud olan ədəbi cərəyanları və estetik prinsipləri anlayır. |
| **FTN 3.** Azərbaycan ədəbi-estetik fikrinin görkəmli nümayəndələrinin əsərlərini analiz edir. |
| **FTN 4.** Keçmiş dövrlərin ədəbi-estetik fikirləri ilə müasir nəzəriyyələri müqayisə edir, müxtəlif dövrlərin ədəbi-estetik konsepsiyalarını müqayisəli təhlil edərək fərqli yanaşmalar irəli sürür. |
| **FTN 5.** Ədəbi-estetik dəyərlərin cəmiyyətə təsirini izah edir, müxtəlif ədəbi fikirlərin müasir dövrdə aktuallıq dərəcəsini müəyyən edir. |
| **FTN 6.** Azərbaycan ədəbi-estetik fikrinin gələcək inkişaf perspektivlərini şərh edir. |

| |
|---|
| **“Cənubi Azərbaycan ədəbiyyatı” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Cənubi Azərbaycan ədəbiyyatı anlayışının yaranmasının ictimai-siyasi səbəblərini və onun müasir ədəbi düşüncədə qavranılması məsələlərini şərh etməyi bacarır. |
| **FTN 2.** Cənubi Azərbaycan ədəbiyyatına aid olan mövzuları klassifikasiyasına görə təhlil etməyi bacarır, məlum zaman kəsimində keçdiyi inkişaf yolunu dəyərləndirir. |
| **FTN 3.** Cənubi Azərbaycan ədəbiyyatının ədəbi-tarixi qaynaqları və ideya-mövzu istiqamətləri haqqında düzgün mülahizələr aparır. |
| **FTN 4.** XX əsrin ortalarından sonra Cənubi Azərbaycanda yaranan ədəbiyyatın milli azadlıq hərəkatına təsiri yollarını izah edir və onların müasir Azərbaycanın ədəbi prosesləri müstəvisində şərh edir. |
| **FTN 5.** XX əsrin ortalarından sonra Cənubi Azərbaycanda yaranan ədəbiyyatın milli azadlıq hərəkatına təsiri yollarını izah edir və onların müasir Azərbaycanın ədəbi prosesləri müstəvisində şərh edir. |
| **FTN 6.** XX əsrin ortalarından sonra Cənubi Azərbaycanda yaranan ədəbiyyatın milli azadlıq hərəkatına təsiri yollarını izah edir və onların müasir Azərbaycanın ədəbi prosesləri müstəvisində şərh edir. |
| **FTN 7.** Xalq poeziyasının və klassik ədəbiyyatın forma ənənələrinə uyğun yaranmış şeirlərin üslubi keyfiyyətlərini fərqləndirməyi bacarır. |
| **FTN 8.** İkinci dünya müharibəsindən əvvəl və sonra yazıb yaradılmış ədəbi əsərlərdə milli birlik mövzularını yanaşma bucaqlarına görə fərqləndirir. |
| **FTN 9.** Bədii nümunələrdə ana dili uğrunda aparılan mübarizəni azərbaycançılıq ideologiyasına uyğun prinsiplərlə təhlil edir. |
| **FTN 10.** Ədəbi nümunələrdə verilmiş Vətən, yurd, torpaq, azadlıq və s. motivləri düzgün və elmi qənaətlər əsasında təhlil edir. |
| **FTN 11.** Müasir dövrdə Cənubi Azərbaycan ədəbiyyatında əks olunan real gerçəkliyin və tarixi inkişafın ifadəsini izah etməyi bacarır. |
| **“Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** 1990-cı illərdən başlayaraq ədəbiyyatımızın keçdiyi mürəkkəb tarixi dövr, bu dövrdə yazıb-yaradan sənətkarların ideya axtarışları, müxtəlif yaradıcılıq üsulları, janr və üslub xüsusiyyətləri haqqında biliklərə sahib olur. |
| **FTN 2.** 1990-cı ildə Azərbaycanın müstəqilliyini əldə etməsi ilə ictimai-siyasi sferada baş verən dəyişikliklərin, xüsusilə Qarabağ müharibəsinin başlanmasının ədəbiyyatımıza təsiri ilə yeni mövzu və problematikaların, ideyaların yaranması ilə bağlı dəyərləndirmələr aparır. |
| **FTN 3.** Azərbaycanın müstəqillik əldə etməsi ilə baş verən ictimai-siyasi hadisələrin təsirilə cəmiyyətdə baş verən köklü dəyişikliklərin nəticəsində tanınmış Azərbaycan şair və yazıçılarla yanaşı, yaradıcılığa yeni başlamış yazarlar və əsərləri haqqında biliyə malik olur. |
| **FTN 4.** Keçid dövrü ədəbiyyatının özəlliklərini əks etdirən bədii əsərlər haqqında tam təsəvvür əldə etməklə son iyirmi ildə qələmə alınan bədii nümunələr arasında müqayisələr apararaq elmi nəticələrə gəlməyi bacarır. |
| **FTN 5.** Müstəqillik dövrü ədəbiyyatının ideya istiqamətləti, problematikası, toxunduğu mövzular haqqında nəzəri mühakimə yürütmək bacarığına yiyələnir. |
| **FTN 6.** Müstəqillik dövrü ədəbiyyatına ədəbi tənqidin qənaətləri konteksində yanaşmaq və dəyərləndirməyi bacarır. |
| **FTN 7.** Ən yeni dövr Azərbaycan ədəbiyyatının yeni yaradıcılıq metodları əsasında təhlil edir. |
| **“Çağdaş ədəbi proses” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** “Ədəbi proses” fənninin öyrənilməsinin nəticəsi olaraq ədəbi prosesin tarixi inkişaf mahiyyəti, qanunauyğunluqaları haqqında aydın təsəvvür yaradır. |
| **FTN 2.** “Ədəbi proses” anlayışını müəyyənləşdirən ədəbi-tarixi və nəzəri-estetik xüsusiyyətləri, ədəbi prosesin strukturu və əsas kompanentlərinin tələbələrə öyrədir. |
| **FTN 3.** Ədəbi prosesin ümumi mənzərəsi, uğur və nöqsanları, ədəbi axının istiqaməti ilə, habelə yaradıcılığın mərhələləri, yaradıcılıq psixologiyası ilə tanış olmaq, gələcəyin ədəbiyyatşünaslarına ədəbi prosesin mühiyyətini, mürəkkəb qanunauyğunluqlarını öyrədir. |
| **FTN 4.** Ədəbi prosesin mahiyyətini anlamaqla ədəbiyyat tarixinə daha dəqiq meyarlarla yanaşır. |
| **FTN 5.** Ədəbi prosesin müasir elmi-nəzəri rakursda təhlil edir. |
| **FTN 6.** Çağdaş ədəbi prosesdə klassik bədii fəlsəfi ənənələrin yerini müəyyənləşdirməyi bacarır. |

| |
|---|
| **FTN 7.** Müstəqillik dövrü Azərbaycan ədəbi prosesinin qloballaşma dövrü dünya ədəbi prosesi ilə əlaqələndirmək bacarığına malik olur. |
| **“Azərbaycan dialektologiyası” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Azərbaycan dilinin dialekt və şivələrinin fonetik xüsusiyyətlərini səciyyələndirir, fonetik hadisə və qanunları fərqləndirir. |
| **FTN 2.** Azərbaycan dilinin dialekt və şivələrinin leksik tərkibini səciyyələndirir və müqayisə edir. |
| **FTN 3.** Azərbaycan dilinin dialekt və şivələrinin morfoloji xüsusiyyətlərini səciyyələndirir, köməkçi nitq hissələrini müqayisə edir. |
| **FTN 4.** Azərbaycan dilinin dialekt və şivələrinin sintaktik quruluşunu fərqləndirir. |
| **FTN 5.** Azərbaycan dilinin dialekt və şivələrində sual cümləsinin quruluşu və yaranma yollarını şərh edir. |
| **FTN 6.** Bədii əsərlərdə Azərbaycan dilinin dialekt və şivələrinə xas xüsusiyyətləri seçir. |
| **FTN 7.** Azərbaycan dilinin dialekt və şivə xüsusiyyətlərinin türk yazılı və şifahi abidələrinin xüsusiyyətləri ilə müqayisə edir. |
| **FTN 8.** Azərbaycan dilinin dialekt və şivələrini türk ədəbi dilləri və türk dillərinin dialekt və şivələri ilə müqayisə edir. |
| **“Türkologiyaya giriş” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Tətbiq olunduğu bütün sahələrdə olduğu kimi, kütləvi informasiya vasitələrində ədəbi dilin qorunması ilə əlaqədar məlumatlara malik olur, dilin tətbiqi ilə bağlı müasir elmi tədqiqat metodlarından düzgün istifadə edərək dilimizin bütün imkanlarını tətbiq edə bilir. |
| **FTN 2.** Ədəbi dilin kütləvi informasiya vasitələrində qorunması kimi sıra aktual məsələlərin tədqiqata cəlb olunması barədə elmi fikirlərlə tanış olur, bununla tələbələr elmi-tədqiqat işlərinin məqsəd və prinsiplərini, elmi yaradıcılığın sirlərini öyrənərək geniş yaradıcılıq imkanları qazanır. |
| **FTN 6.** Mürəkkəb məsələlərin bir neçə mümkün həlli yolunu müəyyən edir, alternativ mülahizələr irəli sürmə bacarığına yiyələnir. |
| **FTN 7.** Əsaslandırılmış nəticələr çıxarmaq məqsədi ilə məlumatları və faktları sintez etmə bacarığına yiyələnir. |
| **FTN 8.** Arqumentlərin məntiqiliyini və etibarlılığını, eləcə də müvafiq məlumatın və faktların verilən arqumentlə bağlılıq və arqumentə aidiyyət dərəcəsini dəyərləndirir. |
| **FTN 9.** Ümumi məntiqi və ritorik səfsətələri müəyyən edir. |
| **FTN 10.** Anlayış, hökm və əqli nəticə arasındakı fərqi izah edir. |
| **FTN 11.** Tezis, mülahizə , mühakimə və arqumentləri müəyyən edir. |
| **FTN 12.** Eyniyyət, ziddiyyətsizlik , üçüncünü istisna və kafi əsas qanunu kimi formal məntiq qanunlarını bilir, bunları əqli nəticə və sübut prosesində tətbiq edə bilir. |
| **FTN 13.** Taftalogiya, ziddiyyət, səfsətə və paradoksları müəyyən edə bilir. |
| **FTN 14.** Bu bacarıqları akademik, analitik və yaradıcı şifahi və yazı vərdişlərinin inkişafında istifadə edir. |
| **"Öyrənilən əsas dil" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Dilin orfoepik və orfoqrafik sistemləri arasındakı əlaqəni müəyyən edə bilir. |
| **FTN 2.** Dilin qrammatik quruluşunu mənimsəyir, qrammatik səhvləri müəyyən edir və qrammatik cəhətdən qüsursuz mətn parçaları formalaşdıra bilir. Dilin struktur vahidlərinin kommunikativ funksiyalarına yiyələnir və onlardan düzgün istifadə edir. |
| **FTN 3.** Ünsiyyətin qurulması prosesində dilin zəngin resurslarından maksimum yararlanacaq səviyyədə dilin leksik korpusuna yiyələnir; şifahi və yazılı nitqdə leksik- semantik kateqoriyalardan, ümumişlək olmayan lüğət elementlərindən frazeoloji vahidlərdən, terminlərdən, spesifik ifadələrdən düzgün istifadə etməyi bacarır; sinonimlərin konnotativ xüsusiyyətlərini, çoxmənalı sözlərin işlədilmə məqamlarını ayırd edə bilir. |
| **FTN 4.** Nitqi dinləyici üçün anlaşıqlı, vacib məqamları nəzərə çarpdıracaq qədər ekspressiv və məntiqli şəkildə qurur. |
| **FTN 5.** Effektiv eşidib-anlama vərdişlərini inkişaf etdirir. |
| **FTN 6.** Dinlədiyi mətnlərin linqvistik təhlilini apara bilir; əsas fikirləri, detalları şərh edir; spesifik ifadələrin, idiomların, terminlərin mənasını anlayır; intonasiya və digər prosodik vahidləri fərqləndirir və bunların əsasında danışanın mövzuya emosional-ekspressiv münasibətini izah edir. |

| |
|---|
| **FTN 7.** Müxtəlif konkret və mücərrəd mövzulu yazılı mətnləri anlayır, mətndə yer alan əsas fikirləri şərh edir, mətnin əsas məqamlarını parafraz edir və ümumiləşdirir. |
| **FTN 8.** Frazeoloji vahidlərin semantik-üslubi cəhətlərini və struktur xüsusiyyətlərini ayırd edə bilir. |
| **FTN 9.** Öyrənilən dilin şöbələrini xarakterizə edə bilir; əsas ünsiyyət vahidlərinin normativ, kommunikativ və etik aspektlərdə tətbiqini bacarır; sərbəst fikir söyləyir, tutarlı və zəngin nitq nümayiş etdirir. |
| **FTN 10.** Mətnin təşkilində iştirak edən struktur elementlərinin və vasitələrin xüsusiyyətlərini və tətbiqini mənimsəyir. |
| **"Ölkə ədəbiyyatı tarixi" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Ölkə ədəbiyyatı tarixininin ümumi səciyyəsini vermir və ayrı-ayrı mərhələlərinin xüsusiyyətlərini müəyyənləşdirir. |
| **FTN 2.** Müxtəlif dövrlərdə ədəbiyyatda baş vermiş mühüm hadisələri dərk edir və hər dövrə aid ədəbi istiqamət və məktəblərin müvafiq ölkə üzrə nümayəndələrinin fərqli janrlarda yazılmış ədəbi nümunələrini mənimsəyir; ədəbi nümunələri dövrlər üzrə qarşılaşdıraraq təhlil edir. |
| **FTN 3.** Ölkə ədəbiyyatının aparıcı ictimai-siyasi və ədəbi simalarının həyat və yaradıcılığı barəsində dolğun biliklərə yiyələnir, əsərləri ilə tanış olur, onların fəlsəfi və estetik görüşlərini təhlil edir. |
| **FTN 4.** Bədii əsərlərin üslubi xüsusiyyətləri, əsas ideya və mövzuları haqqında nəzəri-təcrübi məlumat əldə edir. |
| **FTN 5.** Öyrənilən xalqın ədəbiyyatının əsas mənbələrini araşdırmağı bacarır. |
| **FTN 6.** Ölkə ədəbiyyatının ümumdünya ədəbi prosesinə təsirini şərh edir. |
| **FTN 7.** İxtisas ölkəsi ədəbiyyatı nümunələrində Azərbaycan, Şərq, türk mövzuları və motivləri barədə biliklər qazanır. |
| **"Dünya ədəbiyyatı" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Qədim Şərq və Qərb xalqlarının mifləri ilə tanış olur, onları dövrün tarixi-mədəni konteksti müstəvisində öyrənir. |
| **FTN 2.** Antik ədəbiyyatın ümümbəşəri və tarixi əhəmiyyəti, nümayəndələri barəsində müfəssəl məlumatlara yiyələnir, antik lirika və dramaturgiya haqqında ətrafları biliklərə sahib olur. |
| **FTN 3.** Orta əsrlər qəhrəmanlıq eposları, cəngavər-kurtuaz və şəhər ədəbiyyatının poeziya və nəsr nümunələri haqda biliklərə yiyələnir, trubadur və truver poeziyasını mənimsəyir, cəngavər romanı haqqında ətrafları biliklərə sahib olur. |
| **FTN 4.** Orta əsrlər Şərq və Qərb ədəbiyyatının aparıcı ictimai-siyasi nümayəndələrinin, ədib və filosoflarının həyat və yaradıcılıqları haqqında məlumatı mənimsəyir. |
| **FTN 5.** İntibah, Klassisizm, Maarifçilik, Romantizm və Realizm ədəbiyyatının tanınmış yazıçı, şair və dramaturqları barəsində müfəssəl məlumata, aparıcı ədəbi cərəyanların təkamülü haqqında ətraflı biliklərə sahib olur; bu cərəyanları qarşılıqlı şəkildə təhlil edə bilir. |
| **FTN 6.** Modernist ədəbiyyatın fəlsəfi-estetik və nəzəri konsepsiyalarını ədəbi nümunələr əsasında mənimsəyir. |
| **FTN 7.** Posmodernist ədəbiyyatın ədəbi-estetik əsaslarını və müasir müəlliflərin bədii mətnlərində inikas xüsusiyyətlərini araşdırmağı bacarır. |
| **FTN 8.** Müasir ədəbi prosesin əsas təmayülləri ilə (magik realizm, antiutopiya, itirilmiş nəsil, qara yumor, feminizm, elmi fantastika, mutikulturalizmə s.) tanış olur və bu təmayülləri ədəbi nümunələr əsasında səciyyələndirir. |
| **Qədim dil" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Qədim dilin səs sistemini mənimsəyir. |
| **FTN 2.** Qədim dilin morfoloji strukturunu mənimsəyir. |
| **FTN 3.** Qədrim dilin əsas sintaktik vahidlərini mənimsəyir. |
| **FTN 4.** Qədim dildə seçilmiş mətnləri oxuyub anlama səviyyəsində leksik korpusunu mənimsəyir. |
| **FTN 5.** Qədim dildə əsas frazeoloji vahidlərin mənasını anlayır. |
| **FTN 6.** Qədim dilin inkişaf etdiyi mühitin sosial, siyasi və mədəni özəllikləri haq. məlumatlı olur. |
| **FTN 7.** Qədim dilin istifadə edildiyi ədəbi abidələr və qədim dildə əsərlər yaratmış yazıçılar haqqında bilik əldə edir və bu əsərlərdən parçaları müəllimin köməyi ilə/lüğətdən istifadə edərək oxuyub tərcümə edə (və ya şərh edə) bilir. |
| **FTN 8.** Qədim dilin yazıldığı ədəbi əsərlərdə üslub xüsusiyyətlərini təhlil edir, oxu materialına istinad edərək qədim dilin funksional üslubları haqqında fikir yürüdür. |

| |
|---|
| **“Ölkəşünaslıq” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Dili öyrənilən xalqın tarixi və mədəniyyəti haqqında təməl bilklər əldə edir. |
| **FTN 2.** Dili öyrənilən xalqın tarixi və mədəniyyəti haqqında əldə etdikləri biliklər əsasında öyrəndiyi dildə sosio-lnqvistik, sosio-kulturoloji və mədəniyyətlərarası ünsiyyət səviyyəsində müvafiq vərdişlər əldə edir. |
| **FTN 3.** Dili öyrənilən xalqın mədəniyyətini digər mədəniyyətlərlə müqayisəli şəkildə təhlil edə bilir. |
| **FTN 4.** Dilİ öyrənilən xalqın tarixi, mədəniyyəti və dili öyrənilən xalqın yaşadığı ölkədə/ölkərədə gedən sosial proseslərlə bağlı debatlarda iştirak edə bilir. |
| **FTN 5.** Əldə etdikləri bilik və bacarıqlarla təkcə leksik fon, milli mədəniyyət və milli reallıqları deyil, həm də ünsiyyətdə olduqları digər tələbələrdə öyrənilən dilin ölkəsinə hörmət və məhəbbəti aşılamağı bacarır. |
| **FTN 6.** Dili öyrənilən xalqın mədəniyyətindən qəbul edilmiş ünsiyyət, adət və ənənələrin Azərbaycan mədəniyyəti ilə sistemli şəkildə qarşılıqlı əlaqəsini izah edə bilir. |
| **“Psixologiya” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Psixologiyanın predmeti və metodları, psixologiyanın elmlər sistemində yeri və onun əsas sahələri, psixoloji fikrin əsas inkişaf istiqamətləri haqqında biliklər əldə edir. |
| **FTN 2.** İnsan psixikasının quruluşu, davranışın tənzimində şüurun və şüursuzluğun rolu, davranış və fəaliyyətin motivasiyası və psixi tənzimi haqqında təsəvvürə malik olur. |
| **FTN 3.** Psixologiya elminin əsas kateqoriya və anlayışları, psixi olanın idraki, emosional-iradi, motivasyon sahələri, şəxsiyyət, şəxsiyyətin inkişafı və formalaşması xüsusiyyətləri, təfəkkür, ünsiyyət və fəaliyyət, temperament, xarakter və qabiliyyətlər, təhsil və özünüinkişaf problemi haqında biliklərə malik olur. |
| **FTN 4.** Peşəkar və problemli təlim situasiyalarının təhlilini aparmağı, professional ünsiyyəti və qarşılıqlı təsiri, fərdi və birgə qərar qəbulunu, refleksiyanı təşkil etməyi bacarır. |
| **FTN 5.** İnsanların şəxsi və fərdi-psixoloji xüsusiyyətlərinin, eləcə də onların idraki və professional fəaliyyət üslubunun diaqnostikasını aparmağı bacarır. |
| **FTN 6.** Əldə edilmiş bilikləri istər təhsildə pedaqoji sahədə, sənaye və ticarət sahəsində, istərsə də hüquqazidd davranışla mübarizə və s. sahələrdə müxtəlif psixoloji xarakterli praktik problemlərin həllində və qərarların qəbul edilməsində tətbiq edir. |
| **“Ümumi dilçilik” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Daha öncə müvafiq zəruri fənn çərçivəsində əldə edilmiş biliklərə əsaslanaraq dilçilik problemlərinin anlaşılmasında, müəyyən edilməsində və təhlilində yeni səviyyə əldə edir. |
| **FTN 2.** Dilçilikdə ayrı-ayrı şöbələr üzrə mövcud əsas elmi cərəyanların konseptual çərçivəsini və bu cərəyanlara dayanan elmi metodologiyanı anlayır və onları real dil faktlarına tətbiq edərək təhlil edir. |
| **FTN 3.** Dilçilik sahəsində araşdırma aparmaq məqsədi ilə metodoloji bazanı müəyyən edə bilir. |
| **FTN 4.** Dilçiliklə bağlı problemləri humanitar və sosial elmlər sahəsindəki problemlər və nəzəri müddəalarla əlaqələndirərək interdisiplinar çərçivədə qavrayır və təhlil edir. |
| **FTN 5.** Dilçilik elminin müasir problemləri, prioretləri və gələcək perspektivləri haqqında müstəqil mülahizə irəli sürür. |
| **FTN 6.** Dilə, dil faktlarına, dildə gedən proseslərə sistemli elmi yanaşma tətbiq edə bilir. |
| **“Ədəbiyyat nəzəriyyəsi” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Bədii ədəbiyyatın ümumi nəzəri prinsiplərini öyrənir. |
| **FTN 2.** Ədəbiyyatın təbiəti və ədəbiyyatın təyinatı haqqında biliklər əldə edir. |
| **FTN 3.** Ədəbiyyat-cəmiyyət, ədəbiyyat-fəlsəfə, ədəbiyyat-psixologiya, ədəbiyyat-bioqrafiya arasındakı münasibətləri mənimsəyir. |
| **FTN 4.** Əsərin bədii bütövlüyü haqqında nəzəri biliklərə yiyələnir, süjet və kompozisiya ilə bağlı bilikləri genişləndirir. |
| **FTN 5.** Ədəbi dilin leksik-semantik xüsusiyyətlərini mənimsəyir, obrazlı dilin ifadə vasitələri haqqında biliklərə yiyələnir, şeir vəznlərinin milli dilin xüsusiyyətləri ilə əlaqəsini aydınlaşdırır. |
| **FTN 6.** Bədii üslub və metodların tipologiyasını müəyyən edir, metodoloji prinsipləri və üslubi istiqamətləri müəyyənləşdirir. |
| **FTN 7.** Ədəbiyyatşünaslığın mifoloji, psixoloji, bioqrafik, tarixi-müqayisəli məktəbləri haqqında biliklər əldə edir. |

| |
|---|
| **“Üslubiyyat və ritorika” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Üslubiyyata aid spesifik anlayışları və onların arasındakı fərqləri müəyyənləşdirir. |
| **FTN 2.** Müxtəlif mətnlərdə və nitqdə istifadə edilən üslubi vasitələri və onların kontekstdəki funksiyasını müəyyənləşdirir, üslubi analizin prinsiplərini təsvir və müzakirə edir. |
| **FTN 3.** Müvafiq funksional üslublarda mətnlər tərtib edə bilmək üçün uyğun stilistik vahidləri seçib tətbiq etməyi bacarır. |
| **FTN 4.** Ritorik vasitələrdən istifadə etməklə nitqin məntiqiliyini və inandırıcılığını təmin edir. |
| **FTN 5.** Gündəlik və peşəkar diskursda istifadə edilən ritorik vasitələri və xüsusiyyətləri müəyyən edə bilir. |
| **FTN 6.** Öyrənilən dilin ifadəlilik imkanlarını, üslubi kateqoriyaların nitq fəaliyyətində tətbiq metodlarını mənimsəyir, ritorik tələblərə riayət edir və mədəni nitq qabiliyyəti nümayiş etdirir. |
| **“Müasir informasiya - kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Yeni informasiya texnologiyaları və onların rolu haqqında bilikləri əldə edir. |
| **FTN 2.** Müasir informasiya- kommunikasiya texnologiyalarının növləri, təsnifatı haqqında biliklərə yiyələnir. |
| **FTN 3.** İnformasiya cəmiyyətinin konsepsiyası və xüsusiyyətləri, cəmiyyətin informasiyalaşdırılması prosesinin əsas mərhələləri haqqında biliklər qazanır. |
| **FTN 4.** Müvafiq ixtisas sahəsində müasir texnologiyalardan istifadə etmək praktikasına yiyələnir. |
| **FTN 5.** Müvafiq ixtisas sahəsində informasiya texnologiyalarının rolunu və effektivlik meyarlarını qiymətləndirir. |
| **FTN 6.** Müasir Əməiyyat Sistemlərinin iş prinsipini mənimsəyir. |
| **FTN 7.** Proqramlaşdırma bacarığına yiyələnir. |
| **FTN 8.** Veb sistemləri və texnologiyası sahəsində biliklərə yiyələnir və praktik iş təcrübəsi əldə edir. |
| **FTN 9.** Süni intellekt, ekspert sistemləri və s. haqqında biliklər əldə edir. |
| **FTN 10.** İnformasiya təhlükəsizliyi, ona nail olma yolları ilə bağlı bacarıqları formalaşır. |
| **FTN 11.** Ms Office 365 paket proqramlarını mənimsəyir və müvafiq ixtisas sahəsi üzrə tətbiq edir. |
| **FTN 12.** Verinlər bazası haqqında biliyə yiyələnir və müvafiq ixtisas sahəsi üzrə tətbiq edir. |
| **“Mülki müdafiə” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Fövqəıladə hadisələrin təsnifatı, onların tam xarakteristikası, Mülki müdafiənin yaranma tarixi, onun FH-da rolu və vəzifələrini öyrənir. Mülki müdafiə ilə bağlı normativ-hüquqi sənədləri bilir. |
| **FTN 2.** Müasir dövürdə sülh və müharibə dövürlərində Mülki müdafiənin rolunu və vəzifələrini bilir. Texnogen FH-də hadisələrin qarşısının alınması yolları, bakterioloji, kimyəvi və radiasiya şəraitində əhalinin davranış qaydalarını, mahiyyətini bilir. Karantin, observasiya şəraitində, sanitar təmizliyi, ərazinin dezinfek-siyası, kimyəvi zəhərlənmə ocaqlan an dadeqazasiya, radiasiya şəraitində isə dezaktivasiya üsullarını bilir. |
| **FTN 3.** Fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün Dövlət sisteminin rolu və vəzifələrini bilir. Hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin yaradılmasını öyrənir. |
| **FTN 4.** Fövqəladəhallar zamanı əhalinin mühafizəsinin təşkilini həyata keçirir. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bilir. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilir. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini bacarır. Fövqəladə hallar zamanı əhalinin səmərəli mühafizəsinin təşkilini bacarır. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bacarır. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilir. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini həyata keçirir. |
| **FTN 5.** Mülki müdafiə kəşfiyyatının təşkili və aparılması qaydalarını bilir. Radiasiya və kimyəvi, kəşfiyyat cihazlarını işlətməyi bacarır. Mülki müdafə üzrə idaretmə, mülki müdafiə qərargahları və onların əsas vəzifələrini bilir. |
| **FTN 6.** FH-in nəticələrinin aradan qaldırılması yollarını bilir. Qəza- xilasetmə və digəri təxirəsalınmaz işlərin dağıntı ocaqlarında təşkil edir və aparılmasını həyata keçirir. Əhalinin mülki müdafiə sahəsində hazırlanmasının prinsiplərini öyrənir. Fövqəladə hadisələr zamanı dağıntı ərazisində ilk tibbi yardım aparmağı bacarır. |
| **“Dil və cəmiyyət” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** “Dil və cəmiyyət” fənnində toplumdaxili ünsiyyətin formatını müəyyənləşdirən, kommunikasiya prosesini rəvanlaşdıran və ya əksinə manelərə yol açan, kommunikativ geştaltlar qəlibində formalaşan nitq davranışı stereotipləri, patternləri və s. bilir. |

| |
|---|
| **FTN 2.** "Dil və cəmiyyət" fənni çərçivəsində həmçinin ünsiyyət prosesinin verbal, qeyri-verbal və transverbal reallaşma şəklinin nisbətini öyrənir, eləcə də fərqli diskurslarda, fərqli mədəniyyətlərin təmasında bu nisbətin təzahür xüsusiyyətlərini izləməyi bacarır. |
| **FTN 3.** Eləcə də kross-kultural ünsiyyətdə semantik adekvatlığa mane olan lakuna hallarını, sosial qradasiya fərqliliyi zəminində ortaya çıxan sosial zümrə nitq patternlərini də öyrənir. |
| **FTN 4.** Habelə individual psixtip özəlliklərin ünsiyyətin müvəffəqiyyətliliyinə və ya kommunikasiya uğursuzluğuna yol açması məqamını təhlil edir. |
| **FTN 5.** O cümlədən gender fərqliliklərinin ünsiyyət modellərinə təsirini izah edir. |
| **"Dilçiliyin tarixi" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Bütövlükdə dilçiliyin tarixi, müasir vəziyyəti və perspektivləri və onun konkret peşə sahəsi üzrə problemlərini müəyyənləşdirir, dərki və təhlilində yeni səviyyə əldə edir. |
| **FTN 2.** Dilçiliyin tarixi üzrə fundamental bilikləri mənimsəyir, terminoloji aparata yiyələnir, linqvistik təfəkkürə və əsas tədqiqat metod və üsullarını mənimsəyir və qazanılmış bilikləri real dil faktları və materiallarına tətbiq edərək təhlil edir. |
| **FTN 3.** Dilçilik tarixində aparıcı cərəyanlar, məktəblər və ayrı-ayrı alimlərin əsas müddəalarını təhlil edir. |
| **FTN 4.** Linqvistik problemlərin həllinə elmi yanaşma və nəzəriyyələr çərçivədə dərk və təhlil edir. |
| **FTN 5.** Dilçilik elminin yeni paradiqmləri, onların inkişaf dinamikası və gələcək perspektivləri haqqında müstəqil fikir və mülahizələr irəli sürür. |
| **FTN 6.** Müasir elmi-nəzəri mənbələrdə aparıcı ideya və fikirlərə istinad edərək dilə, dilin mahiyyətinə, sistem və struktur xüsusiyyətlərinə, dil faktlarına, dildə gedən dildaxili proseslərə sistemli yanaşma tətbiq edə bilir, mətnin filoloji və təhlilini və şərhini verə bilir. |
| **"Linqvistik tipologiya" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Linqvistik tipologiya fənninin tədrisi çərçivəsində həm struktur, həm də sosial tipologiya formatında linqvistik təsnifatlandırma işıqlandırmağı bacarır. |
| **FTN 2.** Bu çərçivədə ilk olaraq, linvistik universalilər, frekventalilər və unikalilər fərqləndirir. Daha sonra frekventalilərin növü kimi, tipoloji bölgüləri (morfoloji təsnifat, stadial təsnifat, kontensiv təsnifat) bilir. |
| **FTN 3.** Morfoloji bölgünün (kök, aqqlütinativ, flektiv və inkorporlaşan dil tipi fərqləndirməsi) daha əhəmiyyətli və qlobal status qazanmasından dolayı, onun tarixi, qrammatik determinanta və ressesivlər (tipoloji anomaliyalar, yəni, aqqlütinativ dillərdə flektiv elementlər və ya əksinə flektiv dillərdə aqqlütinasiya mexanizmləri və s.) məqamları da geniş şəkildə işıqlandırmağı bacarır. |
| **FTN 4.** Eləcə də bu fənnin tədrisi çərçivəsində sosial tipologiya aspektində ədəbi dil – dialekt – norma məsələləri, monolinqvizm – bilinqvizm – polilinqvizm problemini təhlil etməyi bacarır. |
| **FTN 5.** O cümlədən də, dövlət dili, dillərin kommunikativ ranqlarını da işıqlandırmağı bacarır. |
| **"Semantik universalilər və unikalilər" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Fənn çərçivəsində əldə edilmiş nəzəri biliklərə əsaslanaraq semantik universallığı əhatə edən problemlərinin müəyyənləşdirilməsi, arxetiplər, metakonseptlər, fon bilikləri və s. bu kimi ümumbəşəri və ya unikal mahiyyətli anlayış ümumiləşdirmələrinin dərki və təhlilində yeni səviyyə əldə edir. |
| **FTN 2.** Semantikanın müasir təhlil istiqamətləri üzrə əsas linqvistik cərəyanların metadoloji çərçivəsini və bu cərəyanlara söykənən elmi-nəzəri metodologiyanı dərk edir və onları real dil faktları və materiallarına tətbiq edərək təhlil edir. |
| **FTN 3.** Semantika sahəsində tədqiqat aparmaq məqsədi ilə metodoloji bazanı müəyyənləşdirə bilir. |
| **FTN 4.** Semantikanın humanitar və sosial elmlərin (o cümlədən, psixologiya, etnoqrafiya, antropologiya, tarix, ədəbiyyatşünaslıq və s.) problemlər və nəzəri müddəaları ilə əlaqələndirərək fənlərarası çərçivədə dərk və təhlil edir. |
| **FTN 5.** Semantikanın elminin yeni istiqamətlərinin konkret nümunələr əsasında müasir dilçiliyin aktual problemləri, prioretləri və gələcək perspektivləri haqqında müstəqil fikir və mülahizələr irəli sürür. |
| **FTN 6.** Semantikanın universal və unikallıq səviyyəsində təzahür tapan elementlərinin, anlayış ümumiləşdirmələrinin dil-cəmiyyət əlaqələndirilməsi sayəsində tədqiq edir və dəyərləndirir; mədəniyyətlərarası dialoq formatında lakunaları ərsəyə gətirən amillərin mahiyyətini açıqlayır. |
| **"Dil və ünsiyyət" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Dil və ünsiyyət fənni çərçivəsində əldə edilmiş nəzəri biliklərə əsaslanaraq ünsiyyət nəzəriyyəsinin problemlərini müəyyənləşdirir, dərki və təhlilində yeni səviyyə əldə edir, habelə kommunikativ uğursuzluqların arxasında dayanan səbəblərin linqvistik rakursdan təhlilini aparır. |

| |
|---|
| **FTN 2.** Dil və ünsiyyətin qarşılıqlı şərtləndirmə mexanizmlərinin təhlili çərçivəsində cəmiyyət şərtləndirməsini, fərdi kimlik təsirinin səviyyəsini müəyyənləşdirir və onların araşdırma metodlarını mənimsəyir və tədris prosesi çərçivəsində tətbiq edir. |
| **FTN 3.** Dil və ünsiyyət sahəsində tədqiqat aparmaq məqsədi ilə metodoloji bazanı müəyyənləşdirə bilir. |
| **FTN 4.** Ünsiyyət nəzəriyyəsinin problemlərini humanitar və sosial elmlərin (o cümlədən, psixologiya, etnoqrafiya, tarix, sosiologiya, tarix, ədəbiyyatşünaslıq, kultturologiya və s.) problemlər və nəzəri müddəaları ilə əlaqələndirərək fənlərarası çərçivədə dərk və təhlil edir. |
| **FTN 5.** Ünsiyyət nəzəriyyəsinin yeni istiqamətlərinin təklif etdiyi araşdırma formatı çərçivəsində (Yunq dixotomiyaları, dil kimliyi nəzəriyyəsi/linqvopersonologiya, qrafoloji diaqnostika və s.) kommunikativ müvəffəqiyyətin reallaşmasını təmin edən ünsiyyət dəyərləndirmələrini, ünsiyyət formatını müəyyənləşdirir, mədəniyyətlərarası dialoqda mühüm rol oynayan semantik deşifrə adekvatlığının nəzəri əsaslarını müəyyənləşdirir. |
| **FTN 6.** Müasir nəzəri mənbələrdə aparıcı ideya və fikirlərə istinad edərək dil və ünsiyyət probleminin real və virtual formatdakı çüzümünü müəyyən edən məqamlarını təsbit edir. |
| **"Paralinqvistika" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Fənn çərçivəsində əldə edilmiş nəzəri biliklərə əsaslanaraq paralinqvistika sahəsinin problemlərini müəyyənləşdirir, dərki və təhlilində yeni səviyyə əldə edir. |
| **FTN 2.** Paralinqvistikanın ayrı-ayrı şöbələr üzrə aparılan araşdırmalar haqqında məlumatı əldə edir, paralinqvistikanın müxtəlif istiqamətlərinin (bədən dili, qrafologiya, proksemika və s.) inkişaf səviyyəsini müəyyənləşdirir. |
| **FTN 3.** Paralinqvistika sahəsində tədqiqat aparmaq məqsədi ilə, yəni müstəqil psixodiaqnostikanın gerçəkləşdirilməsi məqsədilə müvafiq yardımçı metodoloji bazanı müəyyənləşdirə bilir və mənimsəyir. |
| **FTN 4.** Paralinqvistikanın problemlərini psixologiya, sossiologiya, ünsiyyət nəzəriyyəsi, kulturologiya, tarix, etnoqrafiya, antropologiya və s. elm sahələrinin problemləri və nəzəri müddəaları ilə əlaqələndirərək fənlərarası çərçivədə dərk və təhlil edir. |
| **FTN 5.** Paralinqvistika elminin yeni istiqamətlərinin konkret nümunələr əsasında müasir dilçiliyin aktual problemləri, prioretləri və gələcək perspektivləri haqqında müstəqil fikir və mülahizələr irəli sürür. Konkret video, audio və mətn formatlı materiallar əsasında təhlil və diaqnostikanı aparır. |
| **FTN 6.** Müasir nəzəri mənbələrdə aparıcı ideya və fikirlərə istinad edərək, habelə müasir bədən dili araşdırmalarının, fərqli istiqamətli paraliqnvistik tədqiqatların dil və nitq formatında verbal reallaşmada təzahürünü müəyyənləşdirir. |
| **"Multikulturalizmə giriş" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Multikulturalizmin mahiyyəti, onun yaranmasının səbəbləri, əhəmiyyəti haqqında əldə etdiyi biliklərdən istifadə edir. |
| **FTN 2.** Müasir ictimai-fəlsəfi fikir tarixində olan tolerantlıq, multikulturalizm ideyaları ilə, eləcə də mültikulturalizmin nəzəri-ideoloji əsasları ilə bağlı biliklərdən nəticə çıxarır. |
| **FTN 3.** Dinin mahiyyəti, onun meydana gəlməsi, müasir dünyada dinin yeri və roluna dair nəzəriyyələrdən ümumiləşdirmələr aparır. |
| **FTN 4.** Buddizm, Xristianlıq, İslam, Zərdüştilik, Yəhudilik, Konfutsiçilik, Daosizm, Şintoizm, Hinduizm, Caynizm, Siqhizm kimi dinlərdən, qədim türk inancları haqqında ətraflı məlumat toplayaraq onları müqayisəli şəkildə təhlil edir. |
| **FTN 5.** Dini radikalizm və onunla mübarizə yollarını araşdırır. |
| **FTN 6.** Etnik-mədəni müxtəlifliyin qorunması və multikulturalizm siyasətinin səmərəliliyinin ölçülməsinin indikatorları ilə işləyir. |
| **FTN 7.** Bir neçə Qərb ölkəsinin etnik-mədəni müxtəlifliyin tənzimlənməsi sahəsində apardığı təcrübəyə yiyələnmək və tətbiq edir. |
| **FTN 8.** Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən multikulturalizm siyasətinin əsas istiqamətlərini, o cümlədən multikulturalizmin Azərbaycan modelinin mahiyyətini, xüsusiyyətlərini və nailiyyətlərini dərk edərək gələcək fəaliyyətlərində tətbiq edir. |
| **"İspan dilinin praktik qrammatikası" fənni üçün təlim nəticələri** |
| **FTN 1.** İspan dilinin əsas qrammatik qaydalarını (məsələn, fel birləşmələri, zamanlar, artikllər, sifətlər və isimlər) öyrənir, qrammatik qaydaları düzgün şəkildə tətbiq edərək cümlələr qurur. |

| |
|---|
| **FTN 2.** Düzgün qrammatik konstruksiyalardan istifadə edərək İspan dilində aydın və səlis ünsiyyət qura bilir və müxtəlif gündəlik situasiyalarda fikirlərini ifadə etməyi bacarır. |
| **FTN 3.** İspan dilində qrammatik baxımdan düzgün yazılı mətnlər qurur. Qrammatik biliklərdən istifadə edərək esse, məktub və ya qısa hekayələr yaza bilir. |
| **FTN 4.** Başlanğıc səviyyədə olan tələbələrin sadə qrammatik konstruksiyaları tətbiq edə bilir, orta səviyyədə olan tələbələrin daha mürəkkəb qrammatik qaydaları mənimsəyərək nitqini təkmilləşdirir. |
| **FTN 5.** Yüksək səviyyəli tələbələr praktiki qrammatika biliklərini genişləndirərək sərbəst ifadə etmə bacarığına yiyələnir. |
| **FTN 6.** Sadə və mürəkkəb cümlə quruluşlarını praktikada istifadə edir. Tabeli və tabesiz cümlələri nitqdə tətbiq edir. Cümlə üzvlərinin funksiyalarını başa düşərək onların nitqdə düzgün istifadəsinə nail olur. |
| **FTN 7.** İndikativ, subjunktiv və imperativ modallıqları mənimsəyib, kontekstə uyğun şəkildə tətbiq edir. Sadə və mürəkkəb zaman sistemlərindən (məsələn, keçmiş zamanlar, gələcək zaman və mükəmməl zamanlar) istifadə edərək ifadələr qurur. |
| **FTN 8.** Dialoq və müzakirələrdə səlis və qrammatik baxımdan düzgün nitq təqdim edir. |
| Rəsmi və qeyri-rəsmi ünsiyyət formalarına uyğun qrammatik quruluşlardan istifadə edir. |
| **FTN 9.** Eyni məna daşıyan, lakin müxtəlif qrammatik konstruksiyalarla ifadə edilən cümlələr arasındakı fərqi anlayır. Mürəkkəb cümlələrdə məna çalarlarının vurğulanması üçün qrammatik vasitələrdən istifadə edə bilir. |
| **FTN 10.** Nitq aktlarının (sorğu, təsdiq, əmr, sual, vəd) qrammatik strukturlarını mənimsəyib müxtəlif nitq niyyətlərinə uyğun qrammatik vasitələrdən istifadə edir. |
| **FTN 11.** Səyahət, iş və ya təhsil zamanı İspan dilinin qrammatikasından istifadə edərək səlis ünsiyyət qurmağa nail olur. |
| **"İspan dilində nitq mədəniyyəti" fənni üçün təlim nəticələri** |
| **FTN 1.** İspan dilində düzgün, səlis və mədəni şəkildə ünsiyyət qurmağa nail olur. |
| **FTN 2.** İspan dilinin fonetik, qrammatik və leksik xüsusiyyətlərini mənimsəyir, səlis və aydın tələffüz etməyi öyrənir, dil bacarıqlarını təkmilləşdirir. |
| **FTN 3.** İspan dilində rəsmi və qeyri-rəsmi şəraitdə mədəni ünsiyyət qura bilir. Müxtəlif kommunikasiya üsullarından (söhbət, təqdimat, debat və s.) istifadə edir. |
| **FTN 4.** Hədəf auditoriyaya uyğun ton və üslubu seçir. İspan dilində düzgün və məntiqli yazılı və şifahi ifadə formalarının istifadəsinə nail olur. Ünsiyyət bacarıqları inkişaf etdirir. |
| **FTN 5.** Mədəni fərqlər barədə məlumatları olur, İspan mədəniyyətinin əsas ünsiyyət qaydalarını və normalarını öyrənir. İspandilli ölkələrin adət-ənənələrini, sosial davranış qaydalarını və danışıqda istifadə olunan spesifik ifadələri öyrənib, danışıqda istifadə edir. |
| **FTN 6.** Nitqin strukturlaşdırılması və məntiqi əlaqələrin qurulmasını öyrənir, fikir və arqumentləri aydın şəkildə təqdim edə bilir. Dinləmə bacarıqları inkişaf edir və digər şəxslərin fikirlərini analiz edə bilir. |
| **FTN 7.** İspan dilində daha peşəkar və effektiv şəkildə nitq qura, eləcə də mədəni fərqləri nəzərə alaraq ünsiyyət prosesini uğurla həyata keçirə bilir. İspan dilində təqdimat edə, yazışa və müzakirə apara bilir. |
| **"İspan dilində şifahi anlama" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Mütaliyəyə əsas olaraq fikirləri izah edir və əsaslandırır. |
| **FTN 2.** Akademik materialların struktur və üslubunu müqayisə edir. |
| **FTN 3.** Günlədilik istifadə olunan frazeoloji ifadələrin həqiqi situasiyalarda istifadə edir. |
| **FTN 4.** Söz ehtiyyatını öyrənir və artırmaq üçün kontekst ipuclarından istifadə edir. |
| **FTN 5.** Dinlədiyi kiçik mətndə səbəb, nəticə xronoloji əlaqələrini aşkarlayır. |
| **FTN 6.** Qoyulan mövzu barəsində dil fenomenlerini, feil formalarını, cümlə tiplərini düzgün istifadə edərək fikir bildirir. |
| **"İspan dilində yazılı anlama" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Paraqrafdan esseye doğru müxtəlif yazı növlərini öyrənir. |
| **FTN 2.** Müxtəlif janrlarda esse yazmaq bacarığını inkişaf etdirir. |
| **FTN 3.** Yazı vərdişlərini inkişaf etdirir. |
| **FTN 4.** Verilən materiallarda yazı qabiliyyətini mükəmməl inkişaf etdirir. |
| **FTN 5.** Müxtəlif yazı çalışmaları, CV, elan, e-mail, məktub, esse yamağı öyrənir. |
| **FTN 6.** Mütaliyəyə cavab olaraq fikirləri izah edir və əsaslandırır. |

| |
|---|
| **“İspan dilində ictimai-siyasi leksika” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** İspan dilində ictimai və siyasi terminologiyanı mənimsəyir. |
| **FTN 2.** Müxtəlif siyasi sistemlər, dövlət quruluşları və beynəlxalq təşkilatlar haqqında əsas anlayışları öyrənir. |
| **FTN 3.** İspan dilli ölkələrdə siyasi və ictimai prosesləri anlamaq üçün vacib olan tarixi və mədəni kontekstlə tanış olur. |
| **FTN 4.** İspan dilində ictimai və siyasi mövzularda məqalələr, çıxışlar və analitik yazılar oxuyub başa düşür. |
| **FTN 5.** İspan dilində rəsmi sənədlər, qanun layihələri və hökumət bəyannamələrini analiz edə bilir. |
| **FTN 6.** Qlobal və yerli ictimai-siyasi problemlərə ispan dilli mənbələrdən istinad edərək yanaşa bilir. |
| **“İspan dilinin leksikologiyası” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Linqvistik terminologiyanı başa düşmək və lüğət məsələlərini müzakirə edərkən ondan istifadə edir. |
| **FTN 2.** Mətnlərdə leksik uyğunluq əlaqələrini müəyyən etmək və leksik vahidlər arasındakı əlaqəni başa düşür. |
| **FTN 3.** Tədris materiallarının hazırlanması və sözlərin mənasını başa düşmək üçün dil korpusundan istifadə edir. |
| **FTN 4.** Çap və elektron lüğətlərdən istifadə etmək və sözlərin mənasını bilik səviyyəsinə və tələbələrin yaşına uyğun olaraq müəyyən edir. |
| **FTN 5.** Sözlərin yaranma yolları və üsullarını mənimsəyir. |
| **FTN 6.** Leksik ifadə vasitələri haqqında ümumi biliklərə yiyələnir. |
| **“İspan dilinin üslubiyyatı” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Üslubiyyat tarixi, onun inkişaf yolu və üslubiyyat nəzəriyyəsi haqqında geniş bilik əldə edir. |
| **FTN 2.** İspan dilinin üslubiyyatı məktəbi və üslubiyyatçıları, həmçinin onların üslubiyyat sahəsinə dair ideyaları haqqında öyrənir. |
| **FTN 3.** Üslubiyyatın banilərinin yazdıqları üslubi norma və bədii imkanları haqqında ətraflı məlumat əldə edir. |
| **FTN 4.** Üslubiyyatın müxtəlif qolları ilə yaxından tanış olur və müxtəlif əsərlərdə onların üslubi xüsusiyyətləri təhlil edir. |
| **FTN 5.** İspan ədəbiyyatının bir çox nümunələrini oxuduqdan sonra üslubi imkanlarını anlamaq bacarığına yiyələnir. |
| **FTN 6.** Müxtəlif ispan yazıçılarının əsərlərində ədəbi dilin üslubi imkanlarını araşdırır, bədii təsvir və ifadə vasitələrini müəyyən etmək bacarıqlarına yiyələnir. |
| **“Akademik yazı və oxu” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Yazı vərdişlərini inkişaf etdirir. |
| **FTN 2.** Müxtəlif yazı çalışmaları, CV, niyyət məktubu, esse yazmağı öyrənir. |
| **FTN 3.** Oxu vərdişlərini müxtəlif mövzu və üsulları əhatə edən yazılı materialların dərs prosesində təhlilləri ilə inkişaf etdirir. |
| **FTN 4.** İctimai – siyasi sahələri əhatə edən qəzet informativ xarakterli məqalələr tədris olunur. |
| **FTN 5.** Oxu vərdişlərini təkmilləşdirir. |
| **FTN 6.** Verilən materiallarda yazı qabiliyyətlərini mükəmməl inkişaf etdirir. |
| **“İspan dilində sənədləşmə və terminologiya” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Sənədləşmə istifadə olunan müxtəlif texnika və metodları formalaşdırır. |
| **FTN 2.** İspan dilində hökumət və qeyri – hökumət təşkilatlarında istifadə edilən sənədlərin tərtibi və işlənib hazırlanması haqqında nəzəri biliklərə yiyələnir. |
| **FTN 3.** Administrativ üslubda verilən sənədlərin tərtibi bacarıqlarını aşılayır. |
| **FTN 4.** Terminologiyaya dair nəzəri bilikləri mənimsəniyir. |
| **FTN 5.** Elmin müxtəlif sahələrinə aid olan terminlərin Azərbaycan dilində qarşılığını interaktiv şəkildə təhlil və müzakirə edir. |
| **FTN 6.** İspan dilində olan müxtəlif sahələri əhatə edən terminlərin Azərbaycan dilində ekvivalentlərini araşdırıb əzbərdən öyrənir. |
| **“İspan və Azərbaycan dilinin müqayisəli leksikologiyası” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** İspan dilində sözlərinin etimologiyasını, onlar arasında forma və mənaya görə mövcud əlaqələrini öyrənir. |
| **FTN 2.** İspan dilinin leksik bazasını təşkil edən sözlər arasında semantik əlaqələrin strukturu, onomasiologiya və semasiologiya haqqında bilik əldə edir. |
| **FTN 3.** Azərbaycan və ispan dilinin leksik vahidlər üzərində fərqli və oxşar xüsusiyyətlərini araşdırır. |

| |
|---|
| **FTN 4.** Sözlər arasında məna əlaqələri, polisemiya, omonimlik və monosemiya əlamətlərini müəyyənləşdirir. |
| **FTN 5.** İspan dili və Azərbaycan dilində sözün həqiqi və məcazi mənalarını, bədii təsvir və ifadə vasitələrini, onların müqayisəsini aydınlaşdırır. |
| **FTN 6.** Dil vahidlərinin paradiqmalarını, onların leksik xüsusiyyətlərini səciyyələndirir. |
| **"Ədəbi komparativistika" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Müqayisəli-tarixi məktəbin inkişaf istiqamətlərini aydın təsəvvür edir. |
| **FTN 2.** Ümümdünya tarixi-ədəbi prosesinin ayrı-ayrı inkişaf mərhələlərini, qanunauyğunluqlarnıı və nəzəri-təcrübi nailiyyətlərini müqayisəli şəkildə öyrənir. |
| **FTN 3.** Bədii mətnlərin müqayisəli və tipoloji təhlil vərdişlərinə yiyələnir. |
| **FTN 4.** Müasir ədəbi prosesin əsas təmayüllərini (magik realizm, antiutopiya, itirilmiş nəsil, və s.) nəzərdən keçirtmək və ədəbi nümunələr əsasında müqayisəli səciyyələndirir. |
| **FTN 5.** Tanınmış müəlliflərinin müxtəlif janrlarda yazılmış ədəbi nümunələrinin oxşar və fərqli cəhətlərini araşdırır. |
| **"Bədii ədəbiyyatda elmi-fantastika janrı" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Fantastika janrının keçdiyi inkişaf mərhələlərini müəyyənləşdirir; |
| **FTN 2.** Elmi-fantastik ədəbiyyatın başlıca xüsusiyyətlərini araşdırır; |
| **FTN 3.** Bədii ədəbiyyatın bir qolu olan elmi-fantastikanın əsasında duran bədii təsvir və ifadə vasitələrindən istifadə qaydalarını müəyyənləşdirir; |
| **FTN 4.** Dünya ədəbiyyatında elmi-fantastikanın janr olaraq formalaşmasında xidməti olmuş yazıçıların həyat və yaradıcılığını təhlil edir; |
| **FTN 5.** Elmi-fantastik əsərləri təhlil etməklə müəllif tərəfindən qoyulan problemləri araşdırmaq və müasir dövrlə paralellər aparır. |
| **"Bədii ədəbiyyatda antiutopiya janrı" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Utopiyanın əsas xüsusiyyətlərini müəyyənləşdirməyi bacarır. |
| **FTN 2.** Antiutopoiya ədəbiyyatının əsas xüsusiyyətlərini araşdırmağı bacarır. |
| **FTN 3.** XX əsr antiutopiya ədəbiyyatının inkişafının əsas meyllərini izah edir. |
| **FTN 4.** XX əsr antiutopiya ədəbiyyatında romanların janr xüsusiyyətlərini təsnif edir. |
| **FTN 5.** Sillabusda qeyd olunan müəlliflərin əsərlərini təhlil etmək və ədəbi nümunələr əsasında müqayisəli səciyyələndirir. |
| **FTN 6.** Tələbələrin müstəqil fikir yürütməsinə, səlist nitq mədəniyyətinə yiyələnməsinə üstünlük verir. |
| **"Qərb dramaturgiyası" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Qərb dramaturgiya tarixininin ümumi səciyyəsini verir və ayrı-ayrı mərhələlərinin xüsusiyyətlərini müəyyənləşdirir. |
| **FTN 2.** Müxtəlif dövrlərdə dramaturgiyada baş vermiş mühüm hadisələri dərk edir və hər dövrə aid ədəbi istiqamət və məktəblərin müvafiq ölkə üzrə nümayəndələrinin fərqli janrlarda (komediya, faciə, dram) yazılmış ədəbi nümunələrini mənimsəyir. |
| **FTN 3.** Qərb dramaturqlarının həyat və yaradıcılığı barəsində dolğun biliklərə yiyələnir, əsərləri ilə tanış olur, onların fəlsəfi və estetik görüşlərini təhlil edir. |
| **FTN 4.** Dram əsərlərinin üslubi xüsusiyyətləri, əsas ideya və mövzuları haqqında nəzəri-təcrübi məlumat əldə edir. |
| **FTN 5.** Öyrənilən dram əsərlərinin əsas mənbələrini araşdırmağı bacarır. |
| **FTN 6.** Dram əsərlərinin ümumdünya ədəbi prosesinə təsirini və ordakı mövqeyini şərh edir. |
| **"Ədəbiyyatda psixologizm" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Fənnin dərki üçün zəruri olan düşünmə proseslərini və analitik bacarıqları inkişaf etdirir. |
| **FTN 2.** Diskussiyalar yolu ilə əsərlərdəki mürəkkəb və ziddiyyətli məsələlərə aydınlıq gətirir. |
| **FTN 3.** Tələbələrdə əsərləri düzgün dəyərləndirir, onlardan düzgün nəticə çıxarmaq bacarığı formalaşdırır. |
| **FTN 4.** Ədəbi hadisələrin, mərhələlərin praktiki əhəmiyyətini, insan və cəmiyyətin mövcud və potensial həyatına təsir imkanlarını aydınlaşdırır. |
| **FTN 5.** Tələbələrdə yazılı və şifahi ünsiyyət, diskussiya, dialoq, eləcə də tədqiqat və qrupla işləmək vərdişlərini inkişaf etdirir. |
| **"XX əsr ədəbiyyatında mifoloji motivlər" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Mifoloji düşüncə tərzi və dünya modelinin bərpasının çağdaş mifologiya vasitəsilə təsviri haqqında məlumat əldə edir. |

| |
|---|
| **FTN 2.** Mifologiyanın bir elm kimi yaranması, tarixi, çağdaş dövrdəki xüsusiyyətlərini şərh etməyi bacarır. |
| **FTN 3.** Əsas mif nəzəriyyələrinin müasir ədəbi prosesə təsirini aydınlaşdırır. |
| **FTN 4.** XX əsr ədəbiyyatının görkəmli yazıçıların yaradıcılığında mifoloji elementləri araşdırır. |
| **FTN 5.** Çağdaş ədəbiyyatda mövcud olan mifik surətlərin ideya-məzmun xüsusiyyətlərini təhlilə cəlb edir. |
| **"Mətnin poetik təhlili" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Poetik təhlilin sinxron təsviri, onun emosional, ekspressiv-estetik dəyərlilik dərəcəsini müxtəlif səviyyələr üzrə səciyyələndirir. |
| **FTN 2.** Mətni başa düşmə dərinliyini (mövzu, janr, süjet, personajlar, kompozisiya, üslub, istiqamət, bədii fikir), həmçinin düşüncə və hissləri ifadə etmək bacarığına yiyələnir. |
| **FTN 3.** Müəllif mövqeyini müəyyənləşdirmək vərdişlərini qazanır. |
| **FTN 4.** Lirik qəhrəman obrazının qavranılması, onu şərh etmək və müəllifin poetik şəxsiyyətini xarakterizə etməyi bacarır. |
| **FTN 5.** Mətnin arxitektonik xüsusiyyətləri, quruluş, əsərin məkan-zaman prinsiplərinin təhlili, obrazlar sistemi və poetik dil, intertekstual elementləri müəyyənləşdirməyi öyrənir. |
| **"Ədəbiyyat və incəsənət" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Antik, orta əsrlər, intibah, maarifçilik dövrlərində ədəbiyyatın digər incəsənət növləri ilə əlaqələrini aydınlaşdırır. |
| **FTN 2.** Qərb-Şərq incəsənətinin xüsusiyyətlərini müqayisəli səciyyələndirir. |
| **FTN 3.** Bədii mətnlərdə intermediallığın əlamətlərini müəyyənləşdirir. |
| **FTN 4.** Müasir dövrdə incəsənətin yeni yaranan qolları ilə ədəbiyyatın münasibətini şərh edir. |
| **FTN 5.** Diskusiyalar yolu ilə incəsənətin mürəkkəb və ziddiyyətli məsələlərinə, ədəbi hadisələrin insan və cəmiyyətin mövcud və potensial həyatına təsir imkanlarına aydınlıq gətirir. |
| **"XX əsr qadın ədəbiyyatı" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Ədəbi cərəyan və istiqamətlərin nümayəndələri olan qadın yazıçılarının yaradıcılıqlarının bədii xüsusiyyətlərini müəyyənləşdirir. |
| **FTN 2.** Regional, milli, dünya ədəbiyyatında qadının tarixi mövcudluğunu əks etdirən problemləri müəlliflərin əsərlərindən seçib izah edir. |
| **FTN 3.** Qadın nəsri və poeziyasının dili və üslubu haqqında ədəbi-nəzəri fikirlərin araşdırıb təhlil edə bilir. |
| **FTN 4.** Yeni yaradıcılıq istiqamətinin psixologiyasını qadın yazıçılarının yaradıcılıq prizmasından öyrənir. |
| **FTN 5.** XX əsr ədəbiyyatının aparıcı qollarından biri olan qadın nəsri və poeziyasının müasir durumu və problemləri haqqında dolğun təsəvvür formalaşdırır. |
| **"Müasir ədəbi proses" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Bədii yaradıcılığın mərhələlərini öyrənir. |
| **FTN 2.** Ədəbiyyat nəzəriyyəsi ilə bağlı bilikləri genişləndirir. |
| **FTN 3.** Ölkə ədəbiyyatının ümumdünya ədəbi prosesinə təsirini müəyyənləşdirməyi bacarır. |
| **FTN 4.** Ümumdünya tarixi-ədəbi prosesinin ayrı-ayrı inkişaf mərhələlərini, qanunauyğunluqlarını və nəzəri-təcrübi nəaliyyətlərini müqayisəli şəkildə öyrənir. |
| **FTN 5.** Sillabusda qeyd olunan müəlliflərin əsərlərini təhlil edir və ədəbi nümunələr əsasında müqayisəli səciyyələndirir. |
| **"Bədii təhlil üsulları" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Bədii mətnin müxtəlif aspektlərdə şərh və təhlilini təmin etməyi bacarır. |
| **FTN 2.** Müəllif mövqeyini müəyyənləşdirmək vərdişlərini qazanır. |
| **FTN 3.** Mətndən çıxış edərək obrazların daxili dünyasını, xarakterini, mövqeyini, psixoloji durumunu müəyyənləşdirməyi bacarır. |
| **FTN 4.** Əsərin aid olduğu dövrü nəzərə alaraq zaman-məkan prinsiplərini təhlil etməyi öyrənir. |
| **FTN 5.** Mətnin aid olduğu ədəbi istiqamət və ya cərəyanların, xüsusiyyətləri baxımından ədəbi metodlarla şərh etməyi formalaşdırır. |
| **"XX əsr Qərbi Avropa ədəbiyyatının əsas təmayülləri" fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Müasir dövr dünya ədəbiyyatının ilkin mədəni inkişafı haqqında elmi biliyə yiyələnir. |
| **FTN 2.** Kulturoloji inkişaf nöqteyi nəzərindən mədəniyyətlər üzrə ədəbi-mədəni inkişaf mərhələlərinin elmi təsvirini və təhlillərini aparır. |
| **FTN 3.** XX əsrdə yaranan cərəyanlar haqqında elmi biliyə yiyələnmək və təhlil aparır. |

| |
|---|
| **FTN 4.** Yaradıcı şəxs kimi müəllifə dövrün ictimai, siyasi, iqtisadi amillərin təsirini və onun mədəni-tarixi səbəblərini müəyyənləşdirir. |
| **FTN 5.** Ədəbi mətnlərdə obrazların xarakterik cəhətlərini elmi-ədəbi təhlillər vasitəsilə açır. |
| **FTN 6.** Əsərlərdə hadisələrin elmi və bədii təhlilini verir, ədəbi müqayisələr aparır. |
| **“Ədəbiyyat üzrə Nobel mükafatı laureatları” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Diskusiyalar yolu ilə Ədəbiyyat üzrə Nobel mükafatı laureatlarının yaradıcılığındakı mürəkkəb və ziddiyyətli məqamlara aydınlıq gətirir. |
| **FTN 2.** Müasir ədəbi meyarların dərki üçün zəruri olan düşünmə proseslərini və analitik bacarıqları inkişaf etdirir. |
| **FTN 3.** Cəmiyyətdə yeni mənəvi, əxlaqi münasibətlərin yaranmasına maraq, dünya ədəbi mühitinə, bədii düşüncə sisteminə inteqrasiya həvəsini formalaşdırır. |
| **FTN 4.** Bədii əsərləri məzmun və ideya istiqamətinə, sənətkarlıq cəhətlərinə, obrazların səciyyəsinə görə təhlil edir; tənqidi və yaradıcı münasibət bildirir. |
| **FTN 5.** Ədəbi mövzulara aid tədbirlərin təşkilinə, yaradıcı nailiyyətlərə münasibət bildirir; görkəmli yazıçıların peşə sahəsindəki fəaliyyəti barədə materiallar toplayıb müxtəlif ədəbi mövzularda təqdimatlar hazırlayır. |
| **“Bədii ədəbiyyatda novella janrı” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Kiçik həcmli ədəbiyyatın antik dövrdən XX əsrə qədər qət etdiyi inkişaf mərhələləri ilə tanışlıq imkanı əldə edir. |
| **FTN 2.** Novella janrının spesifik xüsusiyyətləri, konkret müəlliflərin yaradıcılıqları ilə tanış olur. |
| **FTN 3.** Mövzu, süjet, kompozisiya, təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi baxımından ədəbi nümunələr üzərində araşdırmalar aparır. |
| **FTN 4.** Novellaları ictimai-siyasi, sosial, əxlaqi-etik dəyərlər kontekstində məzmun və ideya xüsusiyyətlərinə görə səciyyələndirir. |
| **FTN 5.** Veb-novella janrının öyrənilməsində rəqəmsal vasitələrin imkanlarından istifadə etmək vərdişlərinə yiyələnir. |
| **“Bədii ədəbiyyatda magik realizm” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Müasir ədəbi prosesin əsas təmayüllərindən hesab olunan magik realizm haqqında nəzəri-təcrübi bilikləri fəlsəfi kontekstdə təhlil edir. |
| **FTN 2.** Magik realizm metodunun ayrı-ayrı inkişaf mərhələləri, qanunauyğunluqları, estetik prinsipləri haqqında bilik və məlumatlara yiyələnir. |
| **FTN 3.** Mifoloji məktəbin inkişaf istiqamətlərini və əsas mif nəzəriyyələrini aydın təsəvvür edir. |
| **FTN 4.** Magik realizm metodu ilə yazılmış ədəbi nümunələrin oxşar və fərqli cəhətlərini araşdırır. |
| **FTN 5.** Müəllifin məxsus olduğu regionun tarixi, siyasi, mədəni və etnik problemlərini təhlil etməklə yeni biliklərin qavranılmasına nail olur. |
| **“Rəqəmsal ədəbiyyat” fənni üzrə təlim nəticələri** |
| **FTN 1.** Yeni nəsil virtual ədəbiyyatın özəlliklərini öyrədici və inkişafetdirici texno bacarıqların vasitəsiylə dərk edir. |
| **FTN 2.** Rəqəmsal ədəbiyyat vasitəsilə yaradıcı təfəkkür qabiliyyətini formalaşdırır. |
| **FTN 3.** Metalinqvistik bacarıqlar qazanır. |
| **FTN 4.** Virtual və alternativ bədii reallıq yaratmaq səriştəsi formalaşdırır. |
| **FTN 5.** Mətnyaratma prosesində rəqəmsal vasitələrin imkanlarından istifadə etmək vərdişlərinə yiyələnir. |

**Əlavə 2**

## Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi
## Filologiya - Dil və ədəbiyyat (ispan dili)

| Blokun adı | Fənlərin adı | Proqram təlim nəticələri | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 | PTN 9 | PTN 10 | PTN 11 |
| **Ümumi fənlər** | Azərbaycan tarixi | X | | | | | | | | | | |
| | Azərbaycan dilində İAK | X | X | X | | | | | X | | | |
| | Xarici dildə İAK | X | X | | | | | | X | X | | |
| | ATM. Fəlsəfə | X | X | | | | | | | | | |
| | ATM. AR konstitusiyası və hüququn əsasları | X | | | | | | | | | | |
| | ATM. Məntiq | X | X | | | | | | | | | |
| | ATM. Etika və estetika | X | X | | | | | | | | | |
| | ATM. İnformasiya texnologiyaları (ixtisas üzrə) | X | X | | | | | | | | | |
| | ATM. Politologiya | X | X | | | | | | | | | X |
| **İxtisas fənləri** | Dilçiliyə giriş | X | X | X | X | X | X | | | | | |
| | Ədəbiyyatşünaslığa giriş | X | | | | | | X | X | | X | |
| | Şifahi xalq ədəbiyyatı (ispan) | X | | | | | | X | | X | | |
| | Dil tarixi | X | | X | X | | X | | | | | |
| | Məntiq və tənqidi təfəkkür | X | | | | | | | | | | |
| | Öyrənilən əsas dil | X | X | X | | X | | | X | | | X |
| | Ölkə ədəbiyyatı tarixi | X | | | | | | X | | X | X | |
| | Dünya ədəbiyyatı | X | | | | | | X | | X | X | |
| | Qədim dil | | X | X | | | | | | | | |
| | Ölkəşünaslıq | X | | | | | | | | | | X |
| | Psixologiya | X | | | | | | | | | | |
| | Ümumi dilçilik | X | | | X | X | X | | | | | |
| | Ədəbiyyat nəzəriyyəsi | X | | | | | | X | | X | X | |
| | Üslubiyyat və ritorika | X | X | X | | X | X | X | X | | | |
| | Müasir informasiya-kommunikasiya texnoloiyaları və informasiya təhlükəsizliyi | X | X | | | | | | | | | |
| | Mülki müdafiə | X | | | | | | | | | | |
| **ATM fənləri** | Dil və cəmiyyət | X | X | X | X | | | | | | | X |
| | Dilçiliyin tarixi | X | X | X | X | X | X | | | | | |
| | Linqvistik tipologiya | X | X | X | | X | X | | | | | |
| | Semantik universalilər və unikalilər | X | X | X | | X | | | | | | X |
| | Dil və ünsiyyət | X | | X | | X | X | | | | | |
| | Paralinqvistika | X | | X | | X | X | | | | | |
| | Multikulturalizmə giriş | X | | X | | | | | | | | X |
| | İspan dilinin praktik qrammatikası | | | X | | X | | | | | | |
| | İspan dilində nitq mədəniyyəti | X | | X | | X | | | | | | |
| | İspan dilində şifahi anlama | X | X | X | | X | | | | | | X |
| | İspan dilində yazılı anlama | X | X | X | | X | | | | | | X |
| | İspan dilində ictimai-siyasi leksika | X | X | X | | | | | | | | X |
| | İspan dilinin leksikologiyası | | X | X | | X | X | | | | | |
| | İspan dilinin üslubiyyatı | X | | X | | X | | X | X | | | |
| | Akademik yazı və oxu | X | X | X | | X | | | | | | |
| | İspan dilində sənədləşmə və terminologiya | | | X | | X | | | | | | |
| | İspan və Azərbaycan dillərinin müqayisəli leksikologiyası | | X | X | X | X | X | | | | | |
| | Ədəbi komparativistika | X | X | | | | X | X | | X | X | |
| | Bədii ədəbiyyatda elmi fantastika janrı | X | X | | | | | X | | X | X | |
| | Bədii ədəbiyyatda antiutopiya janrı | X | X | | | | | X | | X | X | |
| | Qərb dramaturgiyası | X | X | | | | | | | X | X | |
| | Ədəbiyyatda psixologizm | X | X | | | | | | | X | X | |
| | XX əsr ədəbiyyatında mifoloji motivlər | X | X | | | | | | | X | X | |
| | Mətnin poetik təhlili | X | X | | | | | X | X | X | X | |
| | Ədəbiyyat və incəsənət | X | X | | | | | | | X | X | |
| | XX əsr qadın ədəbiyyat | X | X | | | | | | | X | X | |
| | Müasir ədəbi proses | X | X | | | | X | X | | X | X | |
| | Bədii təhlil üsulları | X | X | | | | | X | X | X | X | |
| | XX əsr Qərbi Avropa ədəbiyyatının əsas təmayülləri | X | X | | | | X | X | | X | X | |
| | Ədəbiyyatda Nobel mükafatları laureatları | | | | | | | X | | | X | |
| | Bədii ədəbiyyatda novella janrı | | | | | | | X | | X | | |
| | Bədii ədəbiyyatda magik realizm | | | | | | | X | | X | X | |
| | Rəqəmsal ədəbiyyat | | | | | | | X | | | X | |